

Milli azadlıqdan şirin nemət yoxdur!

# Möhkəm dostluq, strateji əməkdaşlıq...



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
22 avqust 2024-cü il, cümə axşamı
№ 151 (6737)
Qiymәti 60 qəpik

# BRİCS-ə gedən yol...



Bax səh. 3

# "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı müasir dövrün əsas çağırışıdır

Bax səh. 5

## "Şimal-Cənub" beynəlxalq nəqliyyat marşrutuna çevrilir

"Şimal-Cənub" Nəqliyyat Dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırmaqdadır. Hindistandan və İran Körfəzi regionundan yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə yük və daşınmaların fasiləsiz hərəkətini təmin edən dəhlizin rentabelliliyi ildən-ilə daha da yüksəlir. 13 ölkənin təmsil olunduğu bu nəqliyyat xəttində hazırda aparılan infrastruktur yeniləmələri "Şimal-Cənub" arteriyasının daha da hərəkətliliyinin güclənməsinə hesablanıb. Nəqliyyat dəhlizinin ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İrandan keçir. Azərbaycan "Şərq-Qərb" dəhlizi ilə yanaşı, bu marşrut xəttinə də xüsusi əhəmiyyət verir və bunu şərtləndirən əsas amil ölkəmizin ən sərfəli coğrafi kəsişmə nöqtəsində yerləşməsidir. Azərbaycan nəqliyyat kommunikasiyalarının şaxələndirilməsinə önəm verərək Yeni İpək Yolunun Orta Dəhlizində və "Şimal-Cənub" xəttində orta mövqe tutmaqla bütün beynəlxalq nəqliyyat marşrutlarında iştirak edir.

2024-cü ilin yanvar-iyul aylarında "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının həcmi 434 min 651 ton təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 25 faiz çoxdur. Bu rəqəm dəhliz vasitəsilə qlobal tranzitlərin axınının genişlənməsini təsdiq etməklə, Azərbaycanın bu nəqliyyat blokunda əsas aparıcı coğrafiyalardan birinə çevrildiyini şərtləndirir. Mövcud vəziyyət isə beynəlxalq yükdaşımalarında tələbatın artmasını təmin etmək üçün dəhlizin genişləndirilməsini meydana çıxarır. Bu məqsədlə dəhlizin əsas aparıcı ölkələri olan Rusiya, Azərbaycan və İran əlavə infrastrukturların qurulması barədə razılığa gəlib.

"Şimal-Cənub" layihəsi Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfəri zamanı da əsas müzakirə mövzularından biri olub. Tərəflər dövlətlərarası münasibətlərdə müstəsna əhəmiyyətə malik olan regional nəqliyyat dəhlizləri ilə həyata keçirilən daşınmaların iqtisadi dövriyyənin artmasına töhfəsini qeyd edərək bu istiqamətdə əlavə səylər görüləcəyini xatırladıb. Cənab İlham Əliyev qeyd edib ki, "Şimal-Cənub" dəhlizinin Azərbaycan ərazisindəki dəmir və avtomobil yolları tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı...

Bax səh. 3



Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş

## Xalqını tərənnüm edən sənətkar...

Bax səh. 8

## Helesa adəti- Xeyirxahlıq nümunəsi...

Bax səh. 8

## Selincer - inzivaya çəkilmiş rahib

Bax səh. 7

## Qəbələ və Naxçıvanda mühüm görüş...

Məlumdur ki, dünyanın qabaqcıl ölkələrində iqtisadiyyat əsasən kiçik və orta sahibkarlığın dəstəklənməsi hesabına inkişaf edir. Respublikamızda sahibkarlığın inkişafının təşviq edilməsi məqsədilə mühüm işlər görülür. Xüsusilə regionlarımızda azad sahibkarlığın hərtərəfli inkişafı, sahibkarlar mütəmadi görüşlərin təşkili və onlar üçün əlverişli şəraitin yaradılması istiqamətində uğurlu fəaliyyət davam etdirilir.

Bundan başqa, sahibkarlara həm siyasi dəstək, həm metodik tövsiyələr, eyni zamanda maliyyə resursları verilir ki, onlar iş qursunlar. Müxtəlif rayonlarda həyata keçirilən əsas infrastruktur layihələri başa çatır və yaxud yeni layihələrə start verilir. Eyni zamanda regionlarımızda yeni yollar, kommunikasiyalar salınır, elektrik, qaz, su xətləri yenilənir. Bir sözlə, biznesin inkişafı üçün bölgələrdə, həmçinin paytaxtımızda yeni imkanlar yaradılır.

Liberal iqtisadiyyatın genişləndirilməsi, kiçik və orta biznesin dayanıqlı inkişafının təmin edilməsi və nəticə etibarı ilə özəl sektorda gəlirliliyi və istehlak mallarının istehsalının artırılması Azərbaycanda prioritet istiqamətlərdən biri hesab olunur. Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "2030: sosial iqtisadi inkişafa dair milli prioritetlər" gizli iqtisadiyyatın məhdudlaşdırılmasını, eyni zamanda, liberal iqtisadiyyatın genişləndirilməsini özündə ehtiva edən hüquqi bazadır. Dövlət başçısı tərəfindən hər bir sahədə olduğu kimi, sözügedən sektorda da aparılan məqsədyönlü siyasətin uğurlu nəticələri onu deməyə əsas verir ki, yaxın gələcəkdə də azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi istiqamətində uğurların, nailiyyətlərin qazanılmasına şahidlik edəcəyik.

**Sahibkarlar üçün əlverişli fürsətlər**

Son illər sahibkarların fəaliyyətinin təşviqi istiqamətində vergi qanunvericiliyində əhəmiyyətli dəyişikliklər edilib. Belə ki, Azərbaycanda son illərdə yeni iqtisadi model tətbiq edilir. Məsələn, sahibkarlara dövlət dəstəyi olaraq vergi güzəştlərinin təklif olunmasını qeyd edə bilərik. Bununla da sahibkarlar həmin güzəştlərdən istifadə edərək xərclərini minimallaşdırmaq və iqtisadi aktivliyi qısa zamanda bərpa etmək imkanı əldə...

Bax səh. 8



# Almaniyadan başlayan Avropa böhranı...

Bax səh. 7



# Möhkəm dostluq, strateji əməkdaşlıq...

## Azərbaycan-Özbəkistan münasibətləri Türk dünyasının birliyinə xidmət edir

Son iyirmi ildə Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə çatmaq üçün gələcəyə hesablanmış uğurlu daxili və xarici siyasət həyata keçirir. Bütün dövlətlərlə və xalqlarla sülh, dostluq şəraitində yaşamaq niyyətini israrla bəyan edən ölkəmiz ən mötəbər beynəlxalq təşkilatlarda təmsil olunaraq qarşılıqlı əlaqələrin genişləndirilməsi və bu münasibətlərin çoxşaxəli əməkdaşlığa çevrilməsi istiqamətində fəal iş aparır, dünyada və regionda sülhün, təhlükəsizliyin qorunmasına və möhkəmlənməsinə layiqli töhfələr verir. Etibarlı tərəfdaş, sözü ilə əməli bir olan, dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına mühüm töhfələr verən müstəqil Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra bölgədə tamamilə yeni reallıq yaradıb. Regionda və dünyada nüfuzu durmadan artan Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergücləri və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Azərbaycan hökumətinin həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri regiondakı digər dövlətlərin də inkişafına, xalqların rifahına xidmət göstərir. Məhz bu amillər Azərbaycan ilə müxtəlif ölkələr arasında ikitərəfli əlaqələrin sürətli inkişafına təkan verir. Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan ilə münasibətlərin inkişafı mühüm yer tutur. Mərkəzi Asiyanın ən böyük dövlətlərindən olan və sürətlə inkişaf edən Özbəkistan ilə Azərbaycanın qarşılıqlı münasibətləri xüsusilə son illərdə durmadan genişlənir. Respublikamızın bu ölkə ilə əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən də Türk Dövlətləri Təşkilatında intensiv şəkildə inkişaf edir.



AZƏRTAC Azərbaycan-Özbəkistan əlaqələrinin tarixinə və inkişaf yoluna qısa nəzər salır.

Əminliklə deyə bilərik ki, hər iki ölkəni tarixdən gələn bir sıra bağlılıqlar, dövlətlərin siyasi iradəsi və cəmiyyətlərin istəyi birləşdirir. Ölkələrimizin diplomatik münasibətlərinin 1995-ci il oktyabrın 2-də qurulmasına baxmayaraq, Azərbaycan və özbək xalqları arasında ənənəvi dostluq və qardaşlıq əlaqələri tarixən mövcud olub. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Təsadüfi deyil ki, dahi özbək mütəfəkkiri Əlişir Nəvai öz “Xəmsə”sini Nizami Gəncəvinin “Xəmsə”sindən ilhamlanaraq qələmə alıb.

Özbəkistanın sabiq Prezidenti İslam Kərimov dövlətlərimiz və xalqlarımız arasında mədəni əlaqələrə toxunaraq demişdir ki, Daşkənd və Bakı şəhərlərində dahi əcdadlarımız Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin ucaldılması, Azərbaycan paytaxtının küçələrindən birinə dünyaşöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında tarixən mövcud olan qarşılıqlı marağın və hörmətin parlaq nümunələridir.

Bakıda, İçərişəhərdə yerləşən, XV əsrə aid Buxara karvansarası Mərkəzi Asiyadan gələn tacirlər tərəfindən inşa edilib. XVI-XVII əsrlərdə yaşamış Azərbaycan filosofu, şairi və böyük din xadimi, əslən Qarabağdan olan Yusif ibn Məhəmmədcan Qarabağinin qəbri Özbəkistanın Səmərqənd şəhərində yerləşir. Bu faktlar münasibətlərimizin keçmişindən xəbər verir və göstərir ki, hələ XV əsrdə xalqlarımız arasında ticarət əlaqələri və elmi mübadilə mövcud olub.

İki qardaş xalq arasında mədəni əlaqələr sovet dönəmində də xeyli inkişaf edib. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar da yaxından iştirak ediblər. Bu gün 70 minə yaxın azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. Xüsusilə xatırlatmaq lazımdır ki, hazırda çoxsaylı erməni icmasının yaşamasına baxmayaraq, Özbəkistanda Ermənistan səfirliyi və Ermənistanda Özbəkistan səfirliyi fəaliyyət göstərmir.



Azərbaycanla Özbəkistanın tarixi dostluq, qardaşlıq münasibətləri dövlət müstəqilliklərini əldə etdikdən sonra daha da inkişaf etdirilib və uzun illərin sınağından çıxaraq bugünkü səviyyəyə gəlib çatıb. Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında və dövlətlərarası münasibətlərin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub. Prezident İslam Kərimovun 1996-cı ildə Azərbaycana və Ulu Öndər Heydər Əliyevin isə 1997-ci ildə Özbəkistana səfərləri zamanı ölkələrimiz arasında münasibətlərin strateji istiqamətləri müəyyən edilib. Belə ki, Prezident İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən “Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə” imzalanıb. 1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub.



Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı. 1970-ci illərdə onun Şərəf Rəşidov ilə, ondan sonra - 1990-cı illərdə isə İslam Kərimovla dostluğu münasibətlərimizin bugünkü inkişafının təməlini qoyub. 1997-ci il iyunun 18-19-da Ümummilli Lider Heydər Əliyevin Özbəkistana rəsmi səfərini isə münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Həmin səfər zamanı Daşkənddə ölkələrimiz arasında 19 sənəd imzalanıb. Bu sənədlər arasında “Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə” böyük əhəmiyyət kəsb edir. Həmin sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün möhkəm fundamental hüquq-müqavilə bazası yaradıb. Sənədlərin imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev deyib: “Biz Azərbaycanda Özbəkistanla etibarlı tərəfdaşlıq münasibətlərinə malik olmaq istəyirik və hər şey edəcəyik ki, bu münasibətlər olsun, onlar inkişaf edib möhkəmlənsin”. Bugünkü mənzərəyə nəzər salsaq görərik ki, Ulu Öndərin təməlini qoyduğu münasibətlər Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bəhrəsini verir. 2022-ci ildə Prezident İlham Əliyevin Özbəkistana səfəri zamanı Daşkəndin mərkəzində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş guşənin açılışı Özbəkistan xalqının Azərbaycan xalqının böyük Liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətinin təzahürüdür.

Prezident İlham Əliyev hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirərək bildirib: “Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov - iki ölkənin liderləri ikitərəfli münasibətlərin bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni, bizim dostluğumuzun böyük tarixi və tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar”.

1996-cı ildə Azərbaycanın Özbəkistanda, 1998-ci ildə isə Özbəkistanın Bakıda səfirliklərinin fəaliyyətə başlaması ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinə əlavə töhfə verdi.

Özbəkistan ilə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin 2004-cü il martın 23-24-də bu ölkəyə dövlət səfəri zamanı “Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə” imzalanıb. Strateji tərəfdaşlıq münasibətlərinin əsasını qoyan həmin sənəddə tərəflərin keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdikləri ifadə olunub. Özbəkistan keçmiş Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. Belə ki, Özbəkistan 2008-ci il martın 14-də BMT Baş Assambleyasında səsverməyə çıxarılmış “Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət” adlı qətnamənin lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub. Həmçinin 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edib. Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa etdirilən və ötən il avqustun 23-də açılışı olan Mirzə Uluqbəy adına 960 şagird yerlik tam orta məktəb isə Azərbaycan və Özbəkistan xalqlarının qardaşlığının rəmzinə çevrilib.



Bütün bunlar onu deməyə əsas verir ki, hazırkı Azərbaycan-Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri həlledici rol oynayır. Təsadüfi deyil ki, hər iki prezident dövlət səfərləri və rəsmi səfərlərdən əlavə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər.

Xüsusilə 2022-ci il Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı baxımından məhsuldar olub. Məhz həmin il dövlətimizin başçısının Özbəkistana üç dəfə səfər etməsi Azərbaycan Prezidentinin qardaş ölkə ilə əməkdaşlığın inkişafına böyük önəm verməsinin göstəricisidir. Ötən il noyabrın 8-də isə Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistanda səfərdə olub. Dövlətimizin başçısının bütün bu səfərləri zamanı əldə edilmiş razılaşmalar Mərkəzi Asiyanın aparıcı ölkələrindən olan Özbəkistanla əlaqələrimizin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirib.



Həm Azərbaycan, həm də Özbəkistan iqtisadi baxımdan da bütün Türk dünyasının qüdrətli dövlətləri hesab olunurlar. Nəqliyyat sektoru iki qardaş dövlət, bütövlükdə türkdilli ölkələr arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr vermək perspektivlərinə malik istiqamətlərdən biridir. Mühüm nəqliyyat marşrutlarının üzərində yerləşən ölkələrimiz bu sahədə də fəal əməkdaşlıq həyata keçirir. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bütün bunlar Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan yükdaşımaların həcminin daha da artmasına təkan verir. Prezident İlham Əliyevin 2022-ci ilin iyununda Özbəkistana dövlət səfəri zamanı imzalanan “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş” bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Həmin səfər zamanı dövlət başçılarının diqqət göstərdiyi əsas istiqamətlərdən biri də mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi oldu. Məhz bu niyyətin ifadəsi olaraq, Azərbaycanın və Özbəkistanın mədəniyyət xadimlərinin bir qrupu dövlət başçılarının sərəncamları ilə yüksək fəxri adlar, orden və medallarla təltif edildi. Həmçinin ötən il avqustun əvvəlində Bakıda Özbəkistan mədəniyyət günləri böyük təntənə ilə qeyd olundu.

Prezident Şavkat Mirziyoyevin ötən il avqustun 22-23-də Azərbaycana dövlət səfəri qardaş ölkələrimiz arasında münasibətlərin tarixində yeni səhifə açdı. Bu səfər zamanı imzalanan sənədlər və yol xəritələri Özbəkistan-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə və çoxşaxəli əməkdaşlığın genişləndirilməsinə xidmət edir. Özbəkistan Prezidentinin erməni işğalından azad edilmiş ərazilərə - Füzuliyə və Şuşaya səfəri qardaş ölkənin Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərinə töhfəsinin və dəstəyinin daha bir göstəricisi oldu.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ən son Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə cari il iyulun 5-6-da Azərbaycanda səfərdə olub.

Sonda belə nəticəyə gəlmək olar ki, eyni soykökə və uzun tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış 170-dən çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. Əminik ki, ölkələrimiz arasındakı qarşılıqlı etimada söykənən və əsrlərdir davam edən dostluq və qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət göstərəcək.

# BRİCS-ə gedən yol...

Azərbaycanın multiregional xarici siyasət kursunda müxtəlif beynəlxalq təşkilatlarda təmsilçilik xətti xüsusi yer tutur. Bununla ölkəmiz həm siyasi, həm də iqtisadi dividendlər qazanmağı hədəfləyir. Müstəqil Azərbaycan hazırda BMT, QH, TDT, İƏT, MDB kimi beynəlxalq qurumlarda uğurla təmsil olunaraq onların fəaliyyətinə özünün sanballı töhfələrini verir. Azərbaycan daha bir beynəlxalq təşkilata - BRİCS-ə qoşulmaq istəyir. Ölkəmiz artıq bu təşkilata daxil olmaq üçün rəsmi müraciət edib. Bunu KİV-ə açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə deyib.

## Sürətlə inkişaf edən ölkələr qrupu - BRİCS

BRİCS (BRİCS - Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikasının baş hərflərinin abreviaturasıdır) dövlətlərarası assosiasiya kimi qurulub. Təşkilat sürətlə inkişaf edən ölkələr qrupu kimi səciyyələndirilir. Tərkibində doqquz dövləti - Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, BƏƏ, İran, Misir və Efiopiyanı birləşdirən təşkilat 2006-cı ilin iyununda Braziliya, Rusiya, Hindistan, Çin iqtisadiyyat nazirlərinin iştirakı ilə Sankt-Peterburq İqtisadi Forumu çərçivəsində yaradılıb.

BRİCS ölkələri arasında ikitərəfli münasibətlər siyasi kurslara qarışmamaq şərti ilə, bərabərlik və qarşılıqlı fayda əsasında qurulub. Təşkilatın təsisçilərindən olan Rusiya, Çin, Hindistan və Braziliya əhali, ərazi və ÜDM baxımından dünyanın on ən böyük ölkəsi sırasındadır. O cümlədən,

- Braziliya - kənd təsərrüfatı məhsulları ilə zəngindir;
- Rusiya - dünyada ən böyük mineral resurslar ixracatçısıdır;
- Hindistan - ucuz intellektual resurslara malikdir;
- Çin - böyük əmək resurslarına, sürətlə genişlənən iqtisadiyyata sahibidir.

BRİCS-də birləşən ölkələrin hökumət başçıları 2009-cu ildən etibarən illik rəsmi sammitlərdə bir araya gəlirlər. Sammitlə paralel şəkildə xarici işlər, maliyyə və digər nazirliklərin rəhbərlərinin görüşləri də keçirilərək aktual müzakirələr aparılır.

BRİCS ölkələrinin ümumi sahəsi 45,726,508 km və ümumi əhalisi təqribən 3,41 milyard nəfər təşkil edir - bu isə dünya quru səthinin təxminən 26,7 faizidir. Təşkilatın genişlənmə siyasəti açıqdır. Qurumun sıralarının ilk dəfə genişlənməsi Cənubi Afrika Respublikası hesabına baş verib. Bu ölkə 2010-cu ildə təşkilata qoşulmaq istəyini açıqlayıb və müvafiq prosedur qaydaları keçilməklə bu istək təmin olunub. 2023-cü ilin avqust ayına olan məlumata görə, 40 ölkə BRİCS-ə qoşulmaqda maraqlı olduğunu bildirib, onlardan 20-yə yaxını rəsmi olaraq qəbul üçün müraciət belə edib. Son olaraq 2024-cü ilin yanvarında daha dörd ölkə - BƏƏ, İran, Misir və Efiopiya təşkilatın sıralarına qəbul olunub. Verilən məlumatlara görə, üzvlük üçün rəsmi müraciət edən ölkələr sırasında Əlcəzair, Banqladeş, Belarus, Venesuela, Pakistan və digərləri də var. Qrupun 2024-cü ilin sonuna kimi Şərqi Afrika ölkələri ilə qarşılıqlı əlaqələrinin daha da güclənəcəyi proqnozlaşdırılır . Ümumiyyətlə, BRİCS-in əsas ideyası üzv dövlətlərin zəngin resurslarına və potensialına əsaslanmaqla güclü iqtisadi blok formalaşdırmaqdan qaynaqlanır.

## Çinin dəstəyi ilə...

Son illərdə dünyada qütbləşmə meyllərinin daha da intensivləşdiyi müşahidə olunur. Biz görürük ki, ayrı-ayrı beynəlxalq təşkilatlar, xüsusilə də Avropa İttifaqı (Aİ) genişlənmə siyasətində ikili standartlardan çıxış edir - quruma üzv olmaq istəyən bəzi ölkələrə qapılar taybatay açılır, digərlərinə gəldikdə isə belə "qonaqpərvərlik" göstərilmir, əksinə onların qarşısına bir sıra hallarda icrası mümkünsüz görünən tələblər qoyulur. Məsələn, iqtisadiyyatını sürətlə inkişaf etdirən qardaş Türkiyə onilliklərdir ki, Aİ-nin qapısı arxasında saxlanılır.

Sürətlə baş verən geosiyasi proseslər və meydana çıxan yeni çağırışlar fonunda milli dövlətlər üçün "kimin kimlə olacağı" seçiminin aktuallığını artırıb. Bu kimi reallıqlar fonunda Azərbaycanın BRİCS-ə üzv olmaq istəyi tam başadüşüləndir. Ölkəmiz rəsmi müraciətədək BRİCS-ə üzv qəbul olunmaq istəyini müxtəlif səviyyələrdə ifadə edib. Xatırladaq ki, bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını dəstəkləyib.

Son olaraq bu barədə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfəri ərəfəsində "TASS" agentliyinə müsahibəsində bildirib. "BRİCS-ə üzv olmaq istəyənlərin uzun növbəsi var. Azərbaycan doğrudan da belə bir istəyi ifadə edib. Bu barədə rusiyalı həmkarlarımızla danışdıq. Lakin bu da bir prosesdir", - deyə səfir vurğulayıb.

## Azərbaycanın imkanları və gözləntiləri

Azərbaycanın beynəlxalq təşkilatlarda təmsilçiliyi qarşılıqlı maraqlar üzərində qurulub. Ermənistan kimi ölkələrin üzv olduqları beynəlxalq təşkilatlarda təmsilçiliyi formal xarakter daşıyır. Bu ölkə üzv olduğu təşkilatlardan ancaq umacaqlarının, ala biləcəklərinin fərqindədir. Azərbaycanın isə potensialı ölçüyəgəlməz qədər genişdir. Respublikamız əməkdaşlıq etdiyi təşkilatların fəaliyyətinə həm töhfələr vermək iqtidarındadır, həm də, əlbəttə ki, bundan faydalanmağa çalışır.

Ölkəmiz BRİCS-də təmsilçiliklə müəyyən iqtisadi və siyasi məqsədləri hədəfləyir. Ölkəmiz xarici siyasətini davamlı olaraq şaxələndirir. BRİCS-ə üzvlük bu strateji kursa maneçilik yaratmır, əksinə imkanları daha da artırır. Qurumun yaxşı cəhətlərindən biri ondan ibarətdir ki, burada üzvlük digər beynəlxalq platformalarla əməkdaşlığı inkar etmir, yəni ölkələrin qarşısına məhdudiyyətlər qoyulmur. Beləliklə də, Azərbaycan BRİCS sıralarına qatılmaqla yeni coğrafiyalarda yeni əməkdaşlıq əlaqələri qura bilmək imkanı qazanacaq.

Azərbaycanla qurumda təmsil olunan Rusiya və Çin arasında siyasi dialoq kifayət qədər yüksək səviyyədədir. Respublikamız hər iki ölkə ilə müttəfiqlik münasibətlərini özündə ehtiva edən sənədlər imzalayıb. Həmin sənədlərdə qarşılıqlı əməkdaşlığın müxtəlif aspektləri öz əksini tapıb. Üç ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq müxtəlif istiqamətlərdə iqtisadi əlaqələr də genişlənir. Rusiya və Çin bizim ən çox ticarət etdiyimiz üçüncü və dördüncü ölkələrdirlər. BRİCS-də təmsilçilik ölkəmizin iqtisadi əlaqələrinin coğrafiyasını genişləndirmək üçün yeni perspektivlər aça bilər.

Ən mühüm məqamlardan biri kommunikasiyalarla bağlıdır. İndiki geosiyasi gərginliklər fonunda Avrasiyada nəqliyyat bağlantılarına maraq heç vaxt olmadığı qədər artıb. Məlum səbəblərdən ölkələr və daşıma şirkətləri yeni, daha təhlükəsiz marşrutlar axtarışındadırlar. Burada da Azərbaycanın həm təqdim edə biləcəyi imkanlar, həm də qazana biləcəyi dividentlər kifayət qədər çoxdur. Ölkəmizin niyyəti BRICS-in nəqliyyat, kommunikasiya və ticarətlə bağlı fəaliyyətlərində aktiv şəkildə iştirak etməkdir. Çin-Avropa, Rusiya-Hindistan-İran arasındakı ticarət dövriyyəsində Azərbaycan önəmli yer ala bilər. Söhbət qlobal Qərblə qlobal Şərq arasında əməkdaşlığın zəruriliyindən gedirsə, burada həm siyasi-iqtisadi, həm də coğrafi və nəqliyyat bağlantıları nöqteyi-nəzərindən Azərbaycan unikal mövqeyə malikdir. İlk növbədə onu vurğulamaq istərdik ki, bu gün Azərbaycan Qərblə Şərq arasında birləşdirici, sülh, barışıq yaradan bir dövlət qismində çıxış edir. Respublikamızın həm Avropa dövlətləri, həm də Asiya ölkələri, Şərq dünyası ilə çox yaxşı münasibətləri var. Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, irqçiliyə, ksenofobiyaya qarşı qəti mövqe tutur və multikulturalizmi təşviq edir. Bunun nəticəsidir ki, bu gün respublikamızda milli zəmində hər hansı bir ixtilaf yaşanmır. Eyni zamanda, ölkənin daxili mühiti uzunmüddətli sabitliklə səciyyələnir. Bütün bunlar tranzit daşımaları üçün çox önəmli amillərdir.

Azərbaycanın digər üstünlüyü isə uzun illər ərzində böyük həcmlərdə sərmayə qoyuluşu hesabına yaradılan müasir infrastrukturla bağlıdır. Ölkə ərazisindən Şərq-Qərb, Şimal-Cənub dəhlizləri, Transxəzər marşrutu (Orta Dəhliz) keçir. Bütün marşrutlar üzrə yüksəksəviyyəli yollar çəkilib, Ələtdə Xəzər sahillərində ən böyük liman inşa olunub, dəniz donanmasının maddi-texniki bazası yeni tankerlər hesabına möhkəmləndirilib, Bakı - Tbilisi - Qars dəmir yolu xətti çəkilib. Həmçinin ölkə rəhbərliyi perspektivdə nəqliyyat infrastrukturunun genişləndirilməsinə güclü siyasi iradə göstərir. Xüsusilə Şimal-Cənub Dəhlizi BRİCS ölkələri üçün çox önəmli bir marşrutdur. İndiyədək Azərbaycanın ərazisində bu dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda ölkəmizdə bəhs olunan marşrutun ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi istiqamətində fəal çalışmalar həyata keçirilir. Bu il həmin dəmir yolu sahəsinin tələb edilən ötürücülük qabiliyyətinə malik olması üçün modernləşdirilmə tədbirlərinə təxminən 120 milyon dollar ekvivalentində vəsait ayrılması nəzərdə tutulub. Söhbət ildə 15 milyon ton və daha çox - 30 milyon tonadək yüklərin daşınması imkanlarından gedir və bu, tamamilə realdır. Bundan başqa, yaradılacaq Zəngəzur Dəhlizi Transxəzər marşrutunun bir qolu kimi inkişaf etdiriləcək. Hazırda ölkəmizin ərazisində bu dəhlizin bütün seqmentləri üzrə layihələr sürətlə icra olunmaqdadır. Eyni zamanda, Azərbaycan BRİCS-in üzvü olan İranla yeni nəqliyyat bağlantısı yaradır. Bu marşrut Zəngəzur Dəhlizi ilə paralel şəkildə fəaliyyət göstərəcək ki, bu da Avropa ilə Asiya arasında daşımalar üçün yeni imkanlar açacaq.

Azərbaycanın BRİCS-ə üzv qəbul olmaq istəyindən bəhs edərkən digər bir vacib amili də qeyd etmək lazımdır. Bu da Türkiyə faktorudur. Qardaş ölkə də BRİCS-ə üzv olmaq niyyətindədir. Azərbaycanla Türkiyə bütün istiqamətlərdə fəaliyyələrini, o cümlədən də xarici siyasətlərini həmişə bir-biri ilə uzlaşdırırlar. Şübhə yoxdur ki, iki qardaş ölkənin BRİCS-ə doğru yolu uğurlu olacaq.

*Mübariz ABDULLAYEV*






# "Şimal-Cənub" beynəlxalq nəqliyyat marşrutuna çevrilir

## Dəhlizlə Azərbaycan üzərindən daşımaların həcmi 25 faizdən çox artıb

"Şimal-Cənub" Nəqliyyat Dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırmaqdadır. Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə yük və daşınmaların fasiləsiz hərəkətini təmin edən dəhlizin rentabelliliyi ildən-ilə daha da yüksəlir. 13 ölkənin təmsil olunduğu bu nəqliyyat xəttində hazırda aparılan infrastruktur yeniləmələri "Şimal-Cənub" arteriyasının daha da hərəkətliliyinin güclənməsinə hesablanıb. Nəqliyyat dəhlizinin ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İrandan keçir. Azərbaycan "Şərq-Qərb" dəhlizi ilə yanaşı, bu marşrut xəttinə də xüsusi əhəmiyyət verir və bunu şərtləndirən əsas amil ölkəmizin ən sərfəli coğrafi kəsişmə nöqtəsində yerləşməsidir. Azərbaycan nəqliyyat kommunikasiyaların şaxələndirilməsinə önəm verərək Yeni İpək Yolunun Orta Dəhlizində və "Şimal-Cənub" xəttində orta mövqe tutmaqla bütün beynəlxalq nəqliyyat marşrutlarda iştirak edir.

2024-cü ilin yanvar-iyul aylarında "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının həcmi 434 min 651 ton təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 25 faiz çoxdur. Bu rəqəm dəhliz vasitəsilə qlobal tranzitlərin axınının genişlənməsini təsdiq etməklə, Azərbaycanın bu nəqliyyat blokunda əsas aparıcı coğrafiyalardan birinə çevrildiyini şərtləndirir. Mövcud vəziyyət isə beynəlxalq yükdaşımalarında tələbatın artmasını təmin etmək üçün dəhlizinin genişləndirilməsini meydana çıxarır. Bu məqsədlə dəhlizin əsas aparıcı ölkələri olan Rusiya, Azərbaycan və İran əlavə infrastrukturların qurulması barədə razılığa gəlib.

"Şimal-Cənub" layihəsi Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfəri zamanı da əsas müzakirə mövzularından biri olub. Tərəflər dövlətlərarası münasibətlərdə müstəsna əhəmiyyətə malik olan regional nəqliyyat dəhlizləri ilə həyata keçirilən daşınmaların iqtisadi dövriyyənin artmasına töhfəsini qeyd edərək bu istiqamətdə əlavə səylər görüləcəyini xatırladıb. Cənab İlham Əliyev qeyd edib ki, "Şimal-Cənub" dəhlizinin Azərbaycan ərazisindəki dəmir və avtomobil yolları tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı mərhələdə isə ölkəmiz dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuldur. İldə 15 milyon ton və daha çox yüklərin daşınması imkanlarını təmin etmək üçün bütün zəruri infrastrukturları müasirləşdirməkdir.




Qeyd edək ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu tam yeniləşdirməklə bu dəhlizin strateji əhəmiyyətinin artmasına öz töhfəsini verib, Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının inşa olunması, Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturlarının şaxələndirilməsi və modernləşdirilməsi, avtomagistrallar, hava limanları kimi yeni layihələrin yaradılması da bu təşəbbüslərin nəticəsidir. Eləcə də Azərbaycan və İran dəmir yollarının birləşdirilməsinə dair xeyli işlər görüb, Azərbaycanın Astara stansiyasından İranın Astara şəhərinə qədər dəmir yolu artıq inşa edilib. Hazırda dəhlizboyu daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə həyata keçirilir. Son illərdə bu 3 ölkənin dəhlizin axıcılıq gücünün artırılması istiqamətində atdığı addımlar və infrastruktur şəbəkəsinin yenidən qurulması "Şimal-Cənub"un həm də şaxələnməsinə imkanlar açıb. Nəticədə dəmir yolu ilə yanaşı, avtomobil yolunun da potensial ötürücülük qabiliyyəti yüksəlib. Hazırda isə əlavə ötürücü xətlərin dəhlizə inteqrasiyası üçün Azərbaycan üzərinə düşən öhdəliyi tam yerinə yetirməkdədir.

Yeri gəlmişkən, Azərbaycan və Rusiya "Ulyanovsk-Bakı-Astara (İran)" birbaşa yük blok qatarının marşrutunu da istifadəyə hazı vəziyyətə gətirməkdədir ki, bu nəqliyyat xətti də "Şimal-Cənub" dəhlizi ailəsinin tərkib hissəsidir. "Ulyanovsk- Bakı - Astara" marşrutu "Orta Volqa - Xəzər dənizi - Fars körfəzi" logistika layihəsinin qərb dəmir yolu dəhlizi hesab edilir və aqrar-sənaye, o cümlədən ağac emalı məhsullarının daşınmasını nəzərdə tutur.

"Şimal-Cənub" dəhlizinin cənub xəttində də əlavə infrastrukturların yaradılması, dəmir yolu xətlərinin əsas marşruta birləşdirilməsi və digər infrastruktur təminatları işləri aparılmaqdadır. Belə ki, cənubdan daxil olan yük axınlarını qarşılamaq üçün İran və Azərbaycan öz dəmir yollarını tam birləşdirməyi qərar alıb və bu məqsədlə 167 km uzunluğunda Astara-Rəşt dəmir yolunun tikintisi nəzərdə tutulur.

Mövcud infrastrukturların qurulması və yeni dəmir yolu xətlərinin birləşdirilməsindən sonra Şimal dövlətləri öz nəqliyyat xətlərini dəhlizə tam inteqrasiya edəcək, Skandinaviyanın nəqliyyat xətləri Rusiya, Azərbaycan və İranın dəmir yolları bir şəbəkədə birləşəcək və Şimaldan İran körfəzinə qədər vahid dəmir yolu formalaşacaq. Həmçinin, layihənin digər iştirakçı tərəfləri olan Orta-Mərkəzi Asiya ölkələri də öz dəmir yolu xətlərini bu dəhlizə inteqrasiya etməkdədir. Bu günlərdə Pakistan hökuməti də "Şimal-Cənub" dəhlizinə qoşulmağa hazır olduğunu bəyan edib. Beləliklə, "Şimal-Cənub" dəhlizinin genişləndirilməsi və əlavə kommunikasiyaların yaradılması bu nəqliyyat marşrutunun böyük coğrafi hüdudları əhatə etməklə əsas nəqliyyat arteriyalarından birinə çevrilməsini təmin edəcək.

*E.CƏFƏRLİ*

# YAP Mərkəzi Aparatında MDB müşahidə missiyası qərargahının rəhbəri ilə görüş keçirilib

Avqustun 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Müstəqil Dövlətlər Birliyi (MDB) müşahidə missiyası qərargahının rəhbəri Oleq Kuleba arasında görüş keçirilib.

Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Oleq Kuleba MDB müşahidə missiyasının 2003-cü ildən etibarən Azərbaycanda seçkiləri müşahidə etdiyini söyləyib. O bildirib ki, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilər MDB missiyası tərəfindən Azərbaycanda müşahidə edilən 12-ci seçki olacaq.

MDB müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verən qərargah rəhbəri hazırda heyətdə 132 nəfərin yer aldığını, onlardan 10 nəfərin uzunmüddətli müşahidə apardıqlarını qeyd edib. Onun sözlərinə görə, ilkin müşahidələr namizədlər üçün bərabər imkanların yaradıldığını, Mərkəzi Seçki Komissiyasının və onun yerlərdəki qurumlarının seçkilərə yüksək səviyyədə hazırlaşdığını göstərir. O.Kuleba, həmçinin missiya üzvlərinin fəaliyyətinə heç bir maneə yaradılmadığını və lazımi məlumatların əldə edilməsinə aidiyyəti qurumlar tərəfindən dəstək göstərildiyini bildirib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov MDB müşahidə missiyasının Azərbaycandakı fəaliyyətinin seçki təcrübəsinin mübadiləsi və seçki institutunun daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıqla bağlı gördüyü işlər və seçkiqabağı təşviqat kampaniyasının gedişatı haqqında məlumat verən YAP Sədrinin müavini Azərbaycanın zəngin və daim təkmilləşən seçki təcrübəsinə malik olduğunu, qarşıdan gələn parlament seçkilərinin də rəqabətli mühitdə - azad, ədalətli, şəffaf və demokratik keçirilməsi üçün bütün şəraitin təmin edildiyini bildirib.

YAP Sədrinin müavini MDB müşahidə missiyasını maraqlandıran sualları cavablandırıb, seçkilərin gedişatına dair kənar qiymətləndirmənin önəminə diqqət çəkərək missiyaya fəaliyyətində uğurlar arzulayıb.



# “Azərbaycan gəncləri qalib dövlətin vətəndaşı olmaqdan qürur duyurlar”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 101 saylı Samux-Şəmkir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mübariz Qurbanlının YAP Samux rayon təşkilatının qərargahında gənc seçicilərlə görüşü keçirilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov qeyd edib ki, Yeni Azərbaycan Partiyası vətənpərvər, sağlam düşüncəli yeni nəslin formalaşmasına, gənclərin ictimai fəallığının artırılmasına xüsusi önəm verir və onların yaradıcı təşəbbüslərinə dəstək göstərir: “Ölkəmizdə həyata keçirilən siyasət bütün sahələrdə çoxsaylı uğurların əldə edilməsinə səbəb olub. Eyni zamanda, bu uğurlardan gənclərə də pay düşür. Ümumiyyətlə, bu sahədə dövlət siyasəti gənclərin hərtərəfli inkişafına, məşğulluq və təhsil səviyyəsinin yüksəldilməsinə, fiziki və mənəvi sağlamlığının qorunmasına hədəflənib”.

Deputatlığa namizəd Mübariz Qurbanlı əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı danışıb. O qeyd edib ki, Prezident İlham Əliyevin məqsədyönlü gənclər siyasəti nəticəsində bu gün Azərbaycan gəncləri ölkəmizi beynəlxalq arenada uğurla təmsil edirlər: “Gənclərimiz firavan ölkədə yaşayır, qalib və qüdrətli Azərbaycan dövlətinin vətəndaşı olmaqdan qürur duyurlar. Azərbaycan gəncliyi hər zaman Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə sadiq olmalı, Prezident İlham Əliyevin ətrafında daim sıx birləşməli, ümumxalq etimadını doğrultmuş Yeni Azərbaycan Partiyasına dəstək verməlidir”.

Çıxış edən gənc seçicilər 1 sentyabr - parlament seçkilərində fəal iştirak edəcəklərini və YAP-ın namizədinə səs verəcəklərini diqqətə çatdırıblar.

Qeyd edək ki, Mübariz Qurbanlı Samux rayonunun Füzuli kəndində yaşayan seçicilərlə də görüşüb.



# “Partiyamızın şərəfli tarixinə daha bir qələbə səhifəsi yazılacaq”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 4 saylı Naxçıvan şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Eldar İbrahimovun YAP Naxçıvan şəhər təşkilatının qərargahında qadın seçicilərlə görüşü keçirilib.



YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli bildirib ki, Azərbaycan cəmiyyətinin böyük ruh yüksəkliyi ilə hazırlaşdığı parlament seçkiləri xalqımız və dövlətimiz üçün mühüm əhəmiyyət daşıyır: “Ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bu seçkilərə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatılıb”.

Deputatlığa namizəd Eldar İbrahimov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib: “Xalqımızın bütün zümrələri kimi, qadınlarımız da eyni mövqedən çıxış edirlər. Xalqımız güclü Azərbaycan dövlətinin sarsılmaz bünövrəsini qoyan Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasını yeni dövrdə məqsədyönlü şəkildə həyata keçirən cənab İlham Əliyevin dövlət başçısı olaraq uğurlu fəaliyyətinin real nəticələrini görür və yüksək qiymətləndirir. Azərbaycan cəmiyyəti Yeni Azərbaycan Partiyasına inanır, güvənir və öz dəstəyini ifadə edir. Şübhə yoxdur ki, partiyamızın şərəfli tarixinə daha bir qələbə səhifəsi yazılacaqdır”.



Eldar İbrahimov seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Çıxış edən seçicilər uğurlarımızın davamı naminə YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Şanlı Zəfərdən yeni zirvələrə...

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 32 saylı Suraxanı üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Afət Həsənovanın Suraxanı rayonu, Əmircan və Bülbülə qəsəbələrində seçicilərlə görüşləri keçirilib.



YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov Yeni Azərbaycan Partiyasının xalqın iradəsini ifadə edən aparıcı siyasi qüvvə olduğunu diqqətə çatdırıb: “Bunun nəticəsidir ki, partiyamız bu vaxta qədər bütün seçkilərdə qələbə çalıb. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!”.



Deputatlığa namizəd Afət Həsənova əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O vurğulayıb ki, dövlət müstəqilliyinin bərpasından sonra əldə olunan nailiyyətlərin müəllifləri müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, Azərbaycanı ən yüksək zirvələrə ucaldan Prezident İlham Əliyevdir. Müasir, qalib və qüdrətli Azərbaycan şanlı Zəfərdən yeni zirvələrə doğru inamla irəliləməkdədir”.

Afət Həsənova seçiciləri parlament seçkilərində fəal olmağa çağırıb.

Tədbirdə çıxış edən Hacıbala Eyvazov, Fəridə Bunyatov, Ağalar Bayramov və digərləri seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# “Qarabağ və Şərqi Zəngəzurda üçrəngli bayrağımızın dalğalanması hər birimizi qürurlandırır”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 34 saylı Xətai ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mixail Zabelinin YAP Xətai rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov qalib Azərbaycanın bugünkü uğurlarında Ulu Öndər Heydər Əliyevin müstəsna rolundan geniş bəhs edib. O bildirib ki, Azərbaycanın iqtisadi imkanlarının artması hər bir sahədə uğurlara yol açıb: “Azərbaycanın tarixi Zəfəri, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi keçilən inkişaf yolunun təqdimatıdır. Bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının 1 sentyabr - növbədənkənar parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla” şüarı ilə qatılması da bunun bariz nümunəsidir”.




Deputatlığa namizəd Mixail Zabelin Ümummilli Lider Heydər Əliyevin gələcəyə hesablanmış siyasəti nəticəsində Azərbaycanın qazandığı uğurlardan danışıb. O qeyd edib ki, Ulu Öndər hakimiyyətinin hər iki dövründə Azərbaycanın bu günü və gələcəyi üçün möhkəm təməl yaradıb: “Son 20 ildən artıq dövrdə bu xətti uğurla davam etdirən cənab İlham Əliyev Azərbaycan xalqını 30 ilə yaxın işğal altında qalan torpaqlarına qovuşdurdu. Bu gün Qarabağda və Şərqi Zəngəzurda Azərbaycan bayrağının dalğalanması hər birimizi qürurlandırır”.



Tədbirdə çıxış edən təşviqat qrupunun üzvləri Mürvət Əsgərov, Tofiq Məmmədov, seçici Regina Kovalyova və namizədin vəkili Firdovsi Cahangirov yeni dövrə qədəm qoyan Azərbaycanın davamlı inkişafı üçün seçiciləri seçkilərdə fəallıq nümayiş etdirməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, deputatlığa namizəd Mixail Zabelin Neapol küçəsində yaşayan seçicilərlə də görüş keçirib.

# “Son 30 ildə dövlətçilik tariximizin ən böyük uğurlarına imza atmışıq”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 26 saylı Sabunçu birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Afaq Hacıyevanın YAP Sabunçu rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Sabunçu rayon təşkilatının sədr müavini Zülfüqar Cəfərov bildirib ki, tarixi uğurlara imza atan Azərbaycan yeni hədəflərə doğru inamla irəliləyir: “Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə əldə olunan nailiyyətlər təqdirəlayiqdir. Azərbaycan son 30 ildə dövlətçilik tarixinin ən böyük uğurlarına imza atıb. Yeni dönəm isə xalqımıza yeni qələbələr vəd edir”.

Deputatlığa namizəd Afaq Hacıyeva əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan möhtəşəm Zəfər qazanmaqla suverenliyini bərpa edib və parlament seçkiləri ölkəmizin bütün ərazilərini əhatə edəcək: “Azərbaycan öz inkişafının növbəti mərhələsinə qədəm qoyub. Aparılan islahatlar nəticəsində əhalinin həyat şəraiti daha da yaxşılaşır, müəyyən edilmiş bütün hədəflər reallığa çevrilir”.

Çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının xalqın etimadını doğrultduğunu bildirərək daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini söyləyiblər.



Deputatlığa namizəd Afaq Hacıyeva Bakıxanov qəsəbəsinin Sakit Qocayev və Ülvi Bünyadzadə küçələrində yaşayan seçicilərlə də görüşlər keçirib.

# Yeni hədəflərə çatmaq üçün...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 57 saylı Xaçmaz şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ağalar Vəliyevin Xaçmazın Qımılqışlaq və Müşkür kəndlərində seçicilərlə görüşləri keçirilib.

Görüşlərdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov Yeni Azərbaycan Partiyasının parlament seçkilərində qələbə əzmi ilə iştirak etdiyini bildirib.

Deputatlığa namizəd Ağalar Vəliyev çıxışında bildirib ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb: "Hazırda başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir. Bu hədəflər YAP-ın seçki platformasında da öz əksini tapıb".

Deputatlığa namizəd qarşıda dayanan hədəflərə çatmaq üçün seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin Dərgah Abbasov, Rasim Rzaxanov və digərləri çıxış ediblər. Qeyd olunub ki, yarandığı vaxtdan iştirak etdiyi bütün seçkilərdə qələbələr qazanan YAP daim xalqın mənafeyindən çıxış edib və bu gün siyasi sistemin aparıcı qüvvəsi kimi ölkəmizə mühüm nailiyyətlər qazandırmaqdadır. Çıxış edənlər uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər də 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# "Nümunəvi inkişaf yolu xalqımıza yeni qələbələr bəxş edəcək"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 68 saylı Sabirabad-Şirvan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamal Cəfərovun Sabirabad rayonunun Şıxsalahlı kəndində seçicilərlə görüşü keçirilib.

YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O qeyd edib ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə həm Azərbaycanın, həm də onun yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələ başlandı: "Ümummilli Liderimizin müəyyən etdiyi inkişaf yolu Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəltdi. Nümunəvi inkişaf yolu xalqımıza yeni qələbələr bəxş edəcək".

Deputatlığa namizəd Kamal Cəfərov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və beynəlxalq aləmdə mövqelərimizin möhkəmlənməsi dövrü kimi həkk olunub, tarixi Zəfərimizin bünövrəsi qoyulub: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırıb. Ən əsası, 30 ilədək Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi - Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası müasir dövlətçilik tariximizin şanlı səhifəsidir".

Öz növbəsində çıxış edən seçicilər 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# YAP bundan sonra da ölkəmizin tərəqqisinə öz töhfələrini verəcək



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 8 saylı Binəqədi birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Həcər Mirzəyevanın seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, Yeni Azərbaycan Partiyası 1993-cü ildən bu günə qədər bütün seçkilərdən xalqımızın dəstəyi sayəsində qalibiyyətlə çıxıb: "Qarşıdan gələn növbədənkənar parlament seçkilərində də partiyanın qələbə qazanacağına şübhə yoxdur".

Deputatlığa namizəd Həcər Mirzəyeva YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycanın bütün uğurları və möhtəşəm qələbələri Heydər Əliyev yolu ilə bağlıdır: "Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində müstəsna rol oynayıb, bundan sonra da ölkəmizin tərəqqisinə öz töhfələrini verəcəkdir".

Görüş iştirakçılarından Nazim Əliyev, Səbuhi Abdullayev və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədini dəstəkləməyə çağırıblar.

Seçicilər isə gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini vurğulayıblar.



# "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı müasir dövrün əsas çağırışıdır



21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məlahət İbrahimqızı yap.org.az saytına müsahibə verib.

**- Məlahət xanım, sentyabrın 1-də ölkəmizdə növbədənkənar parlament seçkiləri keçiriləcək. Seçki prosesinin gedişatını və mövcud ictimai-siyasi durumu necə dəyərləndirirsiniz?**

- Ölkəmizdə seçkiqabağı mühit istər cəmiyyətdə mövcud olan ictimai-siyasi durum, istərsə də həmrəylik və əmin-amanlıq baxımından çox yüksək səviyyədədir. Müdrik Azərbaycan xalqı bu gün ağı qaradan ayırmağı, gerçək əməli qiymətləndirməyi bacarır. Xalqımız dövlət müstəqilliyinə qovuşduğu ilk illərdən 1993-cü ilə qədər müddətdə tarixinin ən acı, ağır, böhranlı illəri yaşadı. Çörəklə imtahan, torpaqların işğalı, qaçqınlıq və köçkünlüklə, vətəndaş müharibəsi ilə, Xocalı faciəsi, deportasiya və etnik təmizləmə kimi məşəqqətlərlə sınağa çəkildi. Xalqın təkidli tələbi ilə 1993-cü ildə Ulu Öndər Heydər Əliyev respublikamızda hakimiyyətə qayıtdıqdan sonra hər kəsin qəlbində gələcəyin ümid və inam işığı yandı və Azərbaycan öz taleyini, xilasını birmənalı olaraq Heydər Əliyev və onun uzaqgörən siyasətində gördü. Bu mənada, 1993-cü ildən bugünədək Azərbaycanda ictimai-siyasi mühitin, əhalinin seçki fəallığının artan dinamikasını görürük. Xüsusilə, 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərdən bugünədək olan dövrdə əhalinin bütün təbəqələrinin Prezident İlham Əliyev ətrafında sıx birləşməsi ilə sarsılmaz birliyin və vətəndaş həmrəyliyinin bir daha şahidi olduq. Azərbaycan insanı Heydər Əliyev siyasətini müdrikliklə həyata keçirən Müzəffər Ali Baş Komandanımızı alternativsiz Lideri kimi görür. Bu ilin fevral ayında ölkəmizdə keçirilən prezident seçkilərində biz bunun növbəti dəfə şahidi olduq.

Daim Heydər Əliyev siyasətinə dəstək verən vətəndaşlarımız sentyabrın 1-də keçiriləcək parlament seçkilərində də Yeni Azərbaycan Partiyasına etimad göstərəcək. Xalqımız çox gözəl bilir ki, onun işıqlı gələcəyi üç əsrlik dünya ermənilyini və onu dəstəkləyən imperialist qüvvələrin məkrli niyyətlərini darmadağın edən, respublikamızın ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezidentimizin adı və liderliyi ilə bağlıdır. Bu mənada, dəyərli seçicilərimiz Zəfərə, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin bərpasına, Qarabağın əzəmətli quruculuğuna, Böyük Qayıdışa və xalqın rifahına səs verəcək.

**- Xalqımız artıq yeni dövrün reallıqlarını yaşayır. "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının seçki platforması da möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış gerçəklikləri və hədəfləri ifadə edir. Bu barədə nə deyə bilərsiniz?**

- YAP-ın seçki platformasında qeyd edildiyi kimi, ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatılır.

Hələ 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərin ilk günlərində Müzəffər Ali Baş Komandanımız sülh niyyətini ifadə etməklə bölgə xalqlarına, dünya birliyinə müraciət edərək, tarixin yeni səhifəsinin, yaxşı qonşuluq, əməkdaşlıq, təhlükəsizlik, əmin-amanlıq və dayanıqlı sülh və inkişaf səhifəsinin başladığını bəyan etdi. Dövlət başçımız bu çağırışın təkcə ölkəmiz üçün prioritet olduğunu bəyan etmirdi. Bu, regional və beynəlxalq əhəmiyyətli çağırış idi.

Prezidentimizin liderliyi ilə həm ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük işlər həyata keçirilib. Cənab İlham Əliyevin əzmkarlığı və yorulmaz fəaliyyəti, müdrik diplomatiyası ilə ölkəmiz beynəlxalq aləmdə yüksək nüfuz qazanıb. Bildiyimiz kimi, istər bu ilin fevralın 7-də keçirilmiş prezident, istərsə də sentyabrın 1-də keçiriləcək parlament seçkiləri suverenliyini bərpa etmiş Azərbaycanın bütün ərazisini əhatə edən ilk seçkilərdir. Bu mənada, iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası respublikamızın ərazi bütövlüyünün və suverenliyinin bərpası, işğaldan azad olunmuş Qarabağ ərazisində həyata keçirilən əzəmətli bərpa quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurd yuvalarına Böyük Qayıdışı, dünya birliyində güclü və nüfuzlu Azərbaycan reallıqları ilə seçicilər qarşısına çıxır.

Beynəlxalq aləmdə dünya ermənilyinin ifşası, Azərbaycanın söz sahibi olması, dünya ölkələrinin mütləq əksəriyyətinin səsverməsi ilə COP29-un ölkəmizdə keçirilməsi, BMT-də, Türk Dövlətləri Təşkilatında, Qoşulmama Hərəkatında və bir sıra nüfuzlu beynəlxalq təşkilatlarda qazandığımız nüfuz da hər bir azərbaycanlını qürurlandırır. Bu məntiqlə YAP-ın "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı tam olaraq zamanın nəbzi və müasir dövrün əsas çağırışıdır.

Partiyamızın seçki platformasında qeyd olunduğu kimi, Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində - ictimai-siyasi sabitliyin qorunması, əhalinin rifahının yaxşılaşdırılması, milli həmrəyliyin gücləndirilməsi, sosial-iqtisadi islahatların uğurla reallaşdırılması, ətraf mühitin mühafizəsi və yaşıl dünya naminə ümumbəşəri əhəmiyyətli təşəbbüslərin reallaşdırılması, dövlətin müdafiə qabiliyyətinin artırılması, beynəlxalq mövqeyinin möhkəmləndirilməsi və bir çox mühüm nailiyyətlərin əldə edilməsində müstəsna rol oynamış, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa - Heydər Əliyev yolunun davamçısı olan İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsinə öz töhfələrini verəcəkdir.

**- Yeni Azərbaycan Partiyası tərəfindən 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən deputatlığa namizədliyiniz irəli sürülüb və seçkiqabağı təşviqat mərhələsi çərçivəsində seçicilərlə görüşlər keçirirsiniz. Təəssüratınız necədir?**

- Qədirbilən xalqımız daim istər çağdaş dövlətimizin banisi və qurucusu olan Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı əvəzsiz xidmətlərini, istərsə də Müzəffər Ali Baş Komandanımızın ölkəmizə qazandırdığı möhtəşəm nailiyyətləri yüksək qiymətləndirir. Biz keçirilən bütün görüşlərdə seçicilərin minnətdarlıqla bu reallığı ifadə etmələrinin şahidi oluruq.

1993-cü ildən bu günədək xalqımızın Ümummilli Lider Heydər Əliyevə, onun siyasətinə göstərmiş olduğu sədaqətə, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə inam və etibarına, onun ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirməsinə, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasına dəstək göstərməsinə görə qürurluyuq və inamlıyıq.

Əminik ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində seçicilər bir daha YAP-a öz inam və etimadını nümayiş etdirəcəklər. Seçkilər xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi, Heydər Əliyev yoluna sədaqətinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəfər yürüşünün davamına birmənalı dəstəyinin təsdiqi olacaqdır. Seçiciləri seçkilərdə fəal iştirak etməyə və Azərbaycanın gələcəyinə - dünənin, bu günün və sabahın partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırırıq.

# Seçkilər xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacaq



51 saylı Şirvan seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Heydər Əsədov yap.org.az saytına müsahibə verib.

**- Heydər müəllim, ölkəmiz mühüm ictimai-siyasi proses - növbədənkənar parlament seçkiləri ərəfəsindədir. Hər bir seçki ölkə reallıqlarının, o cümlədən demokratik inkişafın təqdimatıdır. Mövcud gerçəkliklər kontekstində ölkəmizdə seçkiöncəsi vəziyyəti necə qiymətləndirmək olar?**

- Qalib, bütövləşən, möhtəşəm uğurları ilə dünyanın diqqətində olan və yeni dövrə qədəm qoyan Azərbaycanın mühüm reallıqlarından biri sabitlik və təhlükəsizlik adası kimi yüksək nüfuz qazanmasıdır. Ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi tanınmasında və yüksək nüfuz qazanmasında bu amilin rolu böyükdür.

Müstəqilliyimizin bərpasının ilk illərinə nəzər saldıqda sabitliyin ölkənin siyasi taleyində nə qədər böyük rol oynadığı özünü aydın şəkildə nümayiş etdirir. O illərdə ölkədə hakimiyyətsizliyin hökm sürməsi Azərbaycanı böyük faciələrlə üzüzə qoydu. Azərbaycan müstəqilliyini itirmək və bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsini yaşadı. Bu məqamı da xüsusi vurğulamaq istərdim ki, Azərbaycanın yerləşdiyi coğrafi məkan, malik olduğu təbii resurslar ölkəmizin daim dünyanın diqqət və marağında olmasını şərtləndirib. Bu reallıq inkaredilməzdir ki, müstəqilliyimizin bərpasının ilk illərində ölkədə ictimai-siyasi vəziyyətin gərginliyi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olmuşdu. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı dövlətimizi məhv olmaqdan xilas etdi. Ümummilli Lider bu çağırışı etdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam mühit yaranmasa, heç bir sosial -iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Bu çağırışın davamı olaraq xüsusi vurğulandı ki, yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, vətəndaşların azadlığı təmin edilməli, insan haqları qorunmalıdır. Ulu Öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanı qısa müddətdə sabitlik diyarına çevirdi. Ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə son qoyuldu. Respublikamızın qısa zamanda böyük investisiyalar məkanına çevrilməsi sabitliyin, qanunun aliliyinin təmin edilməsinin real təzahürü idi.

Bu gün iqtisadi və siyasi islahatların vəhdətinin təmin edilməsi ölkəmizin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Azərbaycanda demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributlar bərqərar olunub. İnsan hüquqları yüksək səviyyədə qorunur, azad mətbuatın inkişafı təmin edilib, yeni siyasi konfiqurasiya şəraitində çoxpartiyalı sistem inkişaf etdirilir, seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsi üçün təkmil qanunvericilik mövcuddur. Eyni zamanda, Seçki Məcəlləsi dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilir, beynəlxalq standartlar nəzərə alınmaqla yeni əlavə və dəyişikliklər edilir.

- Ölkəmizin seçki təcrübəsi Azərbaycanın demokratik dəyərlərə böyük önəm verdiyini nümayiş etdirir. Son 20 ildən artıq dövrdə Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin demokratik təsisatların inkişafı yönündə atdığı addımlar davamlılığı və səmərəliliyi ilə diqqətdədir. Ümummilli Lider Heydər Əliyevin "Demokratiya strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz" fikrinin davamı olaraq Prezident İlham Əliyev bildirir ki, demokratikləşmə sadəcə bir niyyət, şüar deyil, Azərbaycanın hərtərəfli inkişafının əsasıdır. Dövlətimizin başçısı hədəfləri açıqlayarkən bu çağırışı xüsusi qeyd edir ki, gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaq, siyasi islahatlar davam etdiriləcək. Bu, Azərbaycanın prinsipial siyasətidir.

**- Bu gün Azərbaycan tarixi Zəfəri, ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsi fonunda yaratdığı yeni reallıqlarla dünyanın diqqət mərkəzindədir. Yeni dövrə qədəm qoyan Azərbaycanın qarşısında duran başlıca hədəflər hansılardır?**

- Bu gün böyük qürur hissi ilə tarixi Zəfərimizdən bəhs edirik. 30 il ərzində əsas hədəfimiz torpaqlarımızın işğaldan azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı və bu ərazilərdə yeni həyatın başlanması idi. Yeni Azərbaycan Partiyasının hədəflərində də bu məsələlər başlıca prioritet kimi xüsusi yer tuturdu. Xalqımız tam əmin idi ki, dövlətimizin qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti, xalqımızın birliyi, ordumuzun qüdrəti sayəsində bu hədəfə nail olacağıq.

Azərbaycanın bu günü və gələcəyi üçün möhkəm təməl formalaşdıran Ümummilli Lider Heydər Əliyev 2003-cü ildə xalqa tarixi müraciətində Azərbaycanı uğurlu gələcəyə aparacaq, torpaqlarımızı işğaldan azad, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edəcək ünvanı göstərdi. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində Ulu Öndər Heydər Əliyevə bu müraciəti etdi ki, əsəriniz olan müasir müstəqil Azərbaycanı daha da möhkəmləndirəcək, zənginləşdirəcək, yeni zəfərlərə doğru aparacağıq.

Bu vədin əsasında, təbii ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi hədəfi dayanırdı. 2003-2020-ci illər torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq dövrü kimi xarakterizə edilir. Azərbaycan bu dövrdə bütün sahələrdə uğurlu inkişafa nail oldu. Diplomatik mübarizədə mühüm qələbələr qazandıq. Ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir ki, Silahlı Qüvvələrimiz dünyanın ən güclü orduları sırasında qərarlaşdı. 44 günlük Vətən müharibəsi Azərbaycanın qüdrətinin nümayişi oldu. Tarixi Zəfərimizdən üç il sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun həyata keçirdiyi bir günlük antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyi tam bərpa edildi.

Son 20 ildə verilən bütün vədlərin yerinə yetirilməsi artıq yeni dövrün yeni hədəflərinin müəyyənləşdirilməsini şərtləndirdi. Bu ilin fevral ayında növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən əsas amil də məhz dövlət suverenliyinin və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi oldu. Müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edən prezident seçkilərində cənab İlham Əliyev inamlı qələbəsindən sonra andiçmə mərasimində böyük qürur hissi ilə qeyd etdi ki, 2003-cü ildə verdiyi bütün vədlər yerinə yetirildi. Dövlət başçısı "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik", - deyə vurğuladı. Müzəffər Ali Baş Komandan bu məqamı da böyük qürur və əminliklə bildirdi ki, "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Yeni dövr uğurla başlayır. Uğurla da davam edəcək".

- Bu gün Azərbaycan xalqı yeni dövrün uğurlu davamının təsdiqi olan 1 sentyabr - növbədənkənar parlament seçkilərinə böyük ruh yüksəkliyi, xoş əhval-ruhiyyə ilə hazırlaşır. Siyasi sistemin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyası digər seçkilərdə olduğu kimi, bu siyasi kampaniyaya da qələbə əzmi ilə qatılıb.

Hər bir seçki dairəsi üzrə namizədlərini irəli sürən Yeni Azərbaycan Partiyası zəngin seçki təcrübəsinə malikdir. Hər bir seçki kampaniyası partiyanın cəmiyyətdəki nüfuzuna, xalqın ona inam və etimadına işığ salmaqla yanaşı, YAP-ın dövrün çağırışlarını öz seçki platforması və şüarları ilə ifadə etdiyini nümayiş etdirir. Vaxtilə seçkilərə "Yeni, müstəqil Azərbaycan uğrunda!" şüarı ilə qatılan YAP-ın bugünkü şüarı "Yeni dövrə Yeni Azərbaycanla!"dır. Bu çağırış özündə Azərbaycanın bugünkü reallıqlarını və qarşıdakı dövrün hədəflərini açıqlayır.

Tarixi Zəfərimizdən sonra Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin partiyanın VII qurultayında verdiyi tapşırığa əsasən "Biz birlikdə güclüyük!" devizi əsasında yeni Proqramını ictimaiyyətə təqdim edən YAP bu gün yeni reallıqların qarşıya qoyduğu vəzifələri də uğurla yerinə yetirir.

Partiyanın seçki platformasında uğurlarımız və onların əsasında müəyyənləşdirilən hədəflər öz əksini tapıb. Bu hədəflər ictimai-siyasi sabitliyin və milli təhlükəsizliyin təmin olunmasını, xalqımızın mədəni irsinin və milli-mənəvi dəyərlərinin qorunmasını, milli maraqlara əsaslanan xarici siyasəti və Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsini, demokratik inkişafı, müasir çağırışlara cavab verən çoxşaxəli islahatları, davamlı və dayanıqlı iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsini, müasir ordu quruculuğunu, gənclər siyasətini, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın təmin olunmasını, işğaldan azad edilmiş ərazilərə tarixi qayıdışı və böyük quruculuq prosesini əhatə edir.

Möhtəşəm nailiyyətlərimiz, vətəndaş məmnunluğunun artırılmasına yönələn addımlar və onların uğurlu nəticələri Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkilərinə böyük qələbə əzmi ilə qatılmasına stimul verir. Əminik ki, sentyabrın 1-də keçiriləcək seçkilər xalqın Yeni Azərbaycan Partiyasına birmənalı dəstəyinin növbəti ifadəsi olacaq. Xalqımız Heydər Əliyev yoluna sədaqətini, Prezident İlham Əliyevin zəfərlərə yol açan uğurlu və məqsədyönlü siyasətinə inam və etimadını bir daha nümayiş etdirəcək.

**- Heydər müəllim, seçicilərə hansı çağırışı edərdiniz?**

- Azərbaycanın uğurlu inkişafı, zəfərləri göz önündədir. Prezident İlham Əliyevin daim bəyan etdiyi kimi, vətəndaş amili dövlət siyasətinin əsasıdır. Hər bir ölkənin inkişafında əsas amil olan iqtisadi tərəqqi yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında özünü təsdiqləyir.

Davamlı uğurlarımız seçicilərə bu çağırışı etməyə əsas verir ki, hər kəs 1 sentyabr - parlament seçkilərində fəal iştirak etsin, Azərbaycanın gələcəyi naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs versin, növbəti zəfərlərə doğru inamlı addımların atılmasına dəstək göstərsin. Yeni dövrə Yeni Azərbaycanla addımlayaq, daha möhtəşəm uğurlara imza ataq!

# "Partiyamızın hədəfləri xalqımızın milli məqsədlərini əks etdirir"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 71 saylı Cəlilabad şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Malik Həsənovun seçicilərlə görüşü keçirilib.

YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan söhbət açıb. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində ölkəmizin tarixi nailiyyətlərə imza atdığı vurğulanıb, bu uğurların zirvəsində möhtəşəm Zəfərimizin dayandığı qeyd olunub. O, qələbələrin davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədini dəstəkləməyə çağırıb.



Deputatlığa namizəd Malik Həsənov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Bildirib ki, yeni reallıqlar fonunda YAP-ın növbəti qələbəsi heç kimdə şübhə doğurmur: "Müstəqil dövlətimizi yeni zəfərlərə aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, mənafeyi naminə səy göstərir".

Tədbirdə, həmçinin Malik Nəzərov, Ramiz Bəhrəmov, Rövşən Abdullayev və digərləri çıxış edərək YAP-ın xalqın partiyası olduğunu, dövlət maraqlarını daim üstün tutduğunu bildiriblər. "Partiyamızın hədəfləri xalqımızın milli məqsədlərini əks etdirir", - deyə vurğulanıb.

# "Heydər Əliyev ideyaları xalqımızın milli sərvətidir!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 56 saylı Şabran-Xaçmaz seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mahir Süleymanlının Şabran rayonunun Rəhimli, Uzunboyad, Şahnəzərli, Padar və Bor-Bor kəndlərinin seçiciləri ilə görüşü keçirilib.

YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov ölkəmizin siyasi sistemində aparıcı rola malik YAP-ın bu seçkilərə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatıldığını diqqətə çatdırıb.

Deputatlığa namizəd Mahir Süleymanlı əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Ulu Öndərin liderliyi ilə xalqın partiyası kimi yaradılan YAP ölkəmizin inkişafında müstəsna xidmətləri olan böyük siyasi idarəçilik məktəbidir: "Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu partiyanın tarixi ənənələr uğurla davam etdirilir. Xalqımızın milli sərvəti olan Heydər Əliyev ideyalarını Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qətiyyətli, dönməz siyasəti ilə uğurla gerçəkləşdirir".



Tədbirdə, həmçinin təşviqat qrupunun üzvü Ağaşirin Bağırzadə və digərləri çıxış ediblər. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu müasir dövrün reallıqlarına uyğun davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız tarixi nailiyyətlərə imza atır. Çıxış edənlər uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər də 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

Qeyd edək ki, deputatlığa namizəd M. Süleymanlı rayonun Bor-Bor kəndində Vətən müharibəsi şəhidi Əlikram Şahbazlının ailəsini də ziyarət edib.

# YAP bütün sınaqlardan şərəflə çıxıb



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Eyvaz Qurbanovun Oğuz rayonunun Böyük Söyüdlü, Qarabulaq, Caldaş və Çayqovuşan kəndlərindən olan seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov yeni dövrün reallıqlarından və qarşıda duran hədəflərdən bəhs edərək Yeni Azərbaycan Partiyasının seçkilərə qələbə əzmi ilə qatıldığını bildirib.

Deputatlığa namizəd Eyvaz Qurbanov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Qeyd edib ki, partiya bu zamana qədər bütün sınaqlardan şərəflə çıxıb, xalqın partiyası kimi nüfuz qazanıb. Vurğulanıb ki, YAP yarandığı gündən ölkəmizdə siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış edib: "Partiyamız daim Azərbaycanın daha güclü, qüdrətli olmasına, xalqımızın yüksək rifah şəraitində yaşamasına səy göstərib".

Təşviqat qrupunun üzvləri Nazim Hüseynli, Reyhan Yusubova və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Öz növbəsində çıxış edən seçicilər - Murat Virişanov, İsmayıl Məmmədov, Elçin Yusifov, Vidadi Osmanov və digərləri Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini vurğulayıblar.



# Almaniyadan başlayan Avropa böhranı...

Almaniyada maliyyə-büdcə sistemində yaranan çətinliklər və hökumətin üzləşdiyi problemlər parlament fraksiyalarında mübahisələrin də gərginləşməsinə səbəb olub. Hakim "Svetofor" koalisiyasında təmsil olunan siyasi qüvvələr (Almaniya Sosial Demokrat Partiyası, "Yaşıllar", Azad Demokratik Partiya) mübahisə predmetinə çevrilən büdcə məsələsi ilə bağlı təcili tədbirlər görülməsinə çağırış edib. İqtisadiyyat və maliyyə naziri Kristian Lindner isə kansler Olaf Şoltsla məsləhətləşərək növbəti ilin büdcə planlaşdırılması barədə danışıqlar apararaq xərclərin artım mənbələrinin təmin edilməsi yollarını tapmağa çalışıb. 2025-ci ilin büdcə layihəsinin ilkin variantının hazırlanmasında kompromis əldə olunsa da, əlavə fiskal mənbələrin taleyi hələ sual altındadır. Çünki büdcə layihəsində nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi üçün milyardlarla avro dəyərində boşluqlar var və maliyyə öhdəliklərini icra etməkdə hökuməti çətin vəziyyət salır.

Almaniyanın vitse-kansleri, iqtisadiyyat və iqlim mühafizəsi naziri Robert Habek bildirib ki, hazırkı maliyyə sıxıntıları ölkənin iqtisadi dirçəlişindəki problemlərdən qaynaqlanır və hazırda Almaniya iqtisadiyyatı zəif iqtisadi artım dövrü yaşayır. Bu baxımdan "Svetofor" iqtisadiyyatın stimullaşdırılması üçün tədbirlər paketi qəbul etməyi təklif edib.

## Enerji amili iqtisadi tənəzzülə yol açır...

Almaniya hazırda dünyanın ən böyük iqtisadiyyatları reytinqində yüksəlsə də, ümumi artım templəri getdikcə zəifləyir. 2023-cü ildə ölkə iqtisadiyyatının məhsuldarlığı 1,2 faiz azalıb ki, bu da son illərdəki dinamikanın pozulmasına səbəb olub. Ekspertlərin proqnozlarına əsasən, 2024-cü ildə ölkədə artım tempi 1 faizdən də az olacaq. Maliyyə sektorundakı yüksək faiz dərəcələri maliyyə-biznes üçün əlavə investisiyalara mane olur, fiskal yığımların artmadığı halda hökumətin real əməkhaqqını artırması isə iqtisadiyyatı gərginləşdirir.

Maliyyə yığımları və iqtisadi aktivliyin azalmasının əsas səbəblərindən biri Rusiya amilidir. Belə ki, Almaniya iqtisadiyyatı artan enerji qiymətləri səbəbindən əziyyət çəkir. Avropa Birliyinin Rusiya qazının alınmasına qoyduğu sanksiyalardan sonra ölkənin enerji təhlükəsizliyində çətinliklər meydan çıxıb, çünki sənayenin əsas inkişaf etdiyi bu ölkədə sənaye sektorunun enerji təminatı Rusiya qazından daha çox asılı idi, digər ölkələrlə müqayisədə enerji idxalının həcmi xeyli yüksək idi. Regionda yaranmış enerji böhranı Almaniyanı digər ölkələrlə müqayisədə daha çox zərərə uğradıb, sənayedəki azalmalar müxtəlif sektorlara da təsir göstərib, özəl müəssisələrin xərcləri artıb, yüksək inflyasiya isə istehlaka təsir edərək ev təsərrüfatlarının alıcılıq qabiliyyətini aşağı salıb.

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi hesab edir ki, regionda baş verən müharibə və toqquşmalar karbohidrogen (neft-qaz) tədarükündə pozulmalara yol açır və Avropa, o cümlədən Almaniya iqtisadiyyatı üçün sənaye bölmələrinin yanacaq təchizatı komponentlərində tarazlığın bərpasında problemlər artır. Sənaye üçün tələb olunan xammalların yüksək idxal qiymətləri xarici ticarət balanslarındakı qeyri-müəyyənlikləri artırmaqla tədiyə balanslarında azalmalara yol açır və ümumi artımın irəliləməsinə mane olur.



## Ukrayna müharibəsi ixracı zəiflədib...

Almaniyada gözlənilən tənəzzülün əsas səbəblərindən biri iqtisadi amillərlə yanaşı, geosiyasi proseslərlə də əlaqədardır. Belə ki, Rusiya və Ukraynada müharibə, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin pozulması və digər mənfi xarici şoklar qlobal bazarlar üçün risklərin siyasi motivini təşkil edir. Xüsusilə də Rusiya-Ukrayna müharibəsi ilə bağlı qlobal iqtisadi zəncirin pozulması, nəqliyyat-enerji-logistika təchizatlarındakı qırılmalar iqtisadi dayanıqlılığı ləngidir. Bunu kansler Olaf Şolts da etiraf edərək bildirib ki, Ukraynadakı müharibə fonunda bölgənin logistika və ticarət ahəngdarlığı pozulub, əsas ixrac bazarı olan Çinə göndərilən malların həcmində nəzərəçarpacaq azalma müşahidə olunur. Son aylarda ölkənin ixracı təqribən 130 milyard avro geriləyib. Rusiya ilə müharibədən sonra Ukraynaya silah və maddi yardımların artması da maliyyə-iqtisadi dayanıqlığı pozub. Almaniya hökuməti ölkə iqtisadiyyatındakı geriləməni sanaye sahələrində hərbi məhsulların həcminin artırılması ilə də əlaqələndirir.

Ümumilikdə, ölkə son 2 ildə tədarük zəncirlərindəki fasilələrdən əziyyət çəkir və ixrac gəlirlərindəki azalmalar maliyyə gəlirlərinin toplanmasını ləngidir və büdcə kəsirinin artmasına səbəb olur. Ən narahatedici məqamlardan biri real artımın ləngliyi vaxtda sosial xərclərdə böyük büdcə pulları ayıran hökumətin əlavə mənbələri haradan əldə edəcəyidir. Bu, maliyyə naziri Kristian Lindnerin büdcə tərtibatı proqramı ilə bağlı narahatedici çıxışı zamanı da səslənib. Çox güman ki, Almaniya büdcə kəsiri və xarici borcu rekorda həddə çatan ABŞ kimi borclanmaya gedəcək.

## Almaniyanın zəifləməsi Avrozonanın bütün ölkələrinə təsir edir...

Qeyd edək ki, bir müddət əvvəl Avropa İttifaqı Komissiyasının "Avropa İqtisadi Proqnozları 2024" hesabatında Avrozona iqtisadiyyatının 2024-ci ildə 0,4 faiz, 2025-ci ildə isə 0,8 faiz artacağına dair proqnozlar yer alıb. Əvəzində inflyasiya iqtisadi artımı bir neçə dəfə üstələyəcək. Hesabata əsasən, Aİ-də inflyasiyanın 2,5 faiz, avrozonada isə 2,2 faiz olacağı proqnozlaşdırılır. Aİ-də işsizlik səviyyəsi isə 6 faiz civarında gözlənilir. "Bloomberg" nəşri də bir müddət əvvəl AB ölkələrində resessiyanın gözlənilməsinə dair ehtimallar irəli sürüb. BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) Ticarət və İnkişaf Hesabatında da sərt pul siyasəti fonunda Avropaya tənəzzül meyillərinin əlamətlərinin olmasına işarə edilib.




Avropa iqtisadiyyatında ümumi azalmaya təsir göstərən başlıca amil Almaniyanın üzləşdiyi maliyyə sıxıntılarıdır. Xüsusilə də, Avrozonanın birinci iqtisadiyyatı olan Almaniyadakı zəifləmə birbaşa bütün region ölkələrinə təsir edir. Proqnozlara əsasən, Aİ zonasında alıcılıq qabiliyyətinin zəifləməsi və yüksək faiz dərəcələri fonunda kreditlərin azalması, eləcə də investisiya təşviqinin zəifləməsi səbəbindən Avrozonada iqtisadi artım gözləntiləri azalacaq.

***ELBRUS***

# Selincer - inzivaya çəkilmiş rahib

Məşhur amerikalı yazıçı Cerom Devid Selincer ədəbiyyat tarixində əsasən "Çovdarlıqda uçurumdan qoruyan" romanı ilə qalıb. Lakin Selinceri inanılmaz dərəcədə populyarlaşdıran təkcə bu roman deyildi. Yazıçı şöhrətin zirvəsini fəth edəndə qəfil təkliyə qapılmış və inzivaya çəkilərək ömrünün qalan 49 ilini zahid həyatı yaşamışdı. Maraqlıdır, böyük yazıçı insanlara qarışmaqdan, sosial həyatdan nə üçün imtina etmişdi? O hansı həqiqətlərə gedib çıxmış, böyük imtinaların öhdəsindən necə gəlmişdi? Bu suallara cavab tapmaq üçün, qısaca da olsa, yazıçının həyat tarixçəsinə və bədii yaradıcılığına nəzər salmaq lazımdır.

## Yarımçıq təhsil, uğursuz sevgi

Cerom Devid Selincer 1919-cu ilin ilk günündə, 1 yanvarda dünyaya gəlib. Nyu-Yorkda tacir ailəsində böyüyən Ceromun valideynləri yerli amerikalılar deyildi. Atası yəhudi, anası isə şotland-irland əsilliydi. Məktəbdə oxuyarkən yəhudi mənşəli "Devid" adına görə sinif yoldaşları onu lağ obyektinə çevirmişdilər. O zamanlar ABŞ-da antisemitizm dəbdə olduğundan problemdən qaçmaq üçün Cerom öz müəllimlərinə ona ikinci adı ilə müraciət etməyi ciddi şəkildə qadağan elədi. Yeri gəlmişkən, gələcəyin böyük yazıçısı bacarıqlı şagird sayılmırdı, çox zəif oxuyurdu. Buna baxmayaraq o, məktəbin dram klubunun tamaşalarındakı parlaq çıxışları ilə müəllimlərini və mənsub olduğu kollektivi valeh etmişdi.

Ceromun atası oğlunun ədəbi istedada malik olduğunu ağlına belə gətirməzdi. Onu ərzaq ticarəti sahəsində görmək istəyən atası ət və pendir istehsalının incəliklərini öyrənsin deyə Ceromu Polşaya göndərməkdə israrlıydı. Axır ki, gənc Selincer 1938-ci ildə gələcəkdə ailə biznesini, yəni, kolbasa və pendir ticarətini davam etdirmək məqsədilə Polşaya yollanır.

Kollec təhsilini tam başa vurmayan Selincer universitet təhsilini də axıra çatdıra bilmir. Artıq yazıçılığa meyl edən Selincer nüfuzlu Kolumbiya Universitetində qısa hekayələr kursuna gedir. Yazıçıya sonralar populyarlıq qazandıran da məhz qısa hekayə janrında yazdığı ədəbi nümunələr olur. Onun çap etdirdiyi kiçik dramatik hekayələr amerikalı oxucuların xoşuna gəlir.




Lakin Cerom bir yerdə duruş gətirmir. O, təhsil aldığı digər ali məktəblər kimi Kolumbiya Universitetini də yarımçıq tərk edir.

İyirminci əsrin 40-cı illərinin əvvəllərində gənc yazıçının həyatında ilk dəfə ciddi sevgi münasibəti yaranır. Tale Selinceri amerikalı dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Yucin O'Nilin Una adlı qızı ilə qarşılaşdırır. Lakin onların sevgi macərası uğursuz sonluqla nəticələnir. Selincerlə eşq yaşayan Una bir il sonra məşhur aktyor Çarli Çaplinlə tanış olur və onunla ailə qurur.

## Heminqueylə cəbhə yoldaşlığı

Unadan ayrıldıqdan sonra Selincer ABŞ ordusuna qatılır. Həmin dövrdə o, əl çantasında gələcək romanının qeydlərini gəzdirirdi. Rabitə məktəbini çavuş rütbəsi ilə bitirən yazıçı 1942-ci ildə müharibənin ön cəbhəsində vuruşub. O, Normandiyada keçirilmiş məşhur desant əməliyyatında da iştirak edib. Az sonra çavuş Selincer kəşfiyyat əməliyyatlarında xüsusi bacarıq göstərir. Yazıçı eyni zamanda hərbi əsirlərin saxlanması, dindirilməsi kimi qəddar proseslərdə də iştirak edir.

Müharibə başa çatdıqdan sonra əsəb pozğunluğu diaqnozu ilə xəstəxanaya yerləşdirilən çavuş Selincer bir vaxtlar həbs düşərgəsində dindirdiyi məhbusların bir neçəsini orada görür və dərin sarsıntı keçirir. Selincer cəbhədə yazıçı Ernest Heminqueylə tanış olur. "Əlvida silah!" romanının müəllifi Selincerin gələcək romanının qaralamasını yüksək qiymətləndirir və peşəkar yazıçı kimi ona bəzi məsləhətlər verir.

İkinci Dünya müharibəsindən sonra Selincer qısa müddət ABŞ-da əks-kəşfiyyat zabiti kimi fəaliyyət göstərmişdi. Daha sonra Almaniyada yaşayan yazıçı keçmiş Üçüncü Reyxin denasifikasiyasında iştirak etmiş, mətbuatda çalışmışdı. Nasist Silviya Uelteri həbs etdirən, sonra isə tələsik onunla evlənən Selincer müasirlərini təəccübləndirmiş, şübhəyə salmışdı. Odur ki, bu evlilik uzun sürmədi, kənardan çox qəribə təsir bağışlayan cütlük, nəhayət, bir ildən sonra ayrıldı.

ABŞ-a qayıdan Selincer uzun fasilədən sonra hekayə və romanlarını qəzetlərdə dərc etdirməyə başlayır. Onun yaradıcılığının zirvəsi 1951-ci ildə işıq üzü görmüş "Çovdarlıqda uçurumdan qoruyan" romanıdır. Bu kitab üzərində müəllif düz on il işləmişdi. Əsərin qaralama variantını müharibədə cəbhə yoldaşı olan Ernest Heminquey də oxumuş və az əvvəl dediyimiz kimi, ona öz məsləhətlərini vermişdi.

## Qəfil şöhrət və tənhalıq

"Çovdarlıqda uçurumdan qoruyan" romanının baş qəhrəmanı Holden Kolfild gənc üsyançı, dünyanın formalaşmış normaları ilə razılaşmayan, yeni nəslin simvoluna çevrilmiş nihilistdir. Yazıçı yaratdığı personajın düşüncələri vasitəsilə bir çox yeniyetmənin psixoloji durumunu, arzularını, tipik xüsusiyyətlərini əks etdirə bilmişdi.

Roman böyük şöhrət qazandıqdan sonra yazıçı özünü olduqca qeyri-adi aparır. Davamlı olaraq kitablar yazıb çap etdirmək, ziyalılar cəmiyyətinə qoşulmaq əvəzinə tənha həyat tərzi keçirməyə başlayır. Əsəri populyarlıq qazandıqca Selincer gizlənməyə çalışır. Publika onu görməyə can atır, jurnalistlər ondan müsahibə ala bilmirlər. Yazıçı əməlli-başlı inzivaya çəkilir, onu heç kim heç yerdə tapa bilmir.

"Çovdarlıqda uçurumdan qoruyan"dan sonra Cerom bir neçə əsər də nəşr etdirir. Lakin həmin əsərlərin heç biri bu roman qədər uğur qazana bilmir. Selincer isə tənhalıqdan əl çəkmir, üzə çıxmaqdan imtina edir. O, Nyu-Hempşir ştatının Korniş şəhərində

hündür divarlarla çəpərlənmiş bir evdə yaşamaqla insanlardan gizlənməyə davam edir. Yazıçının burada induizmi, buddizmi, qədim tibb elmini dərindən öyrəndiyi, yoqa ilə məşğul olduğu bildirilir. Təkliyi həyat tərzinə çevirmiş Selincer bu yolla öz mənəvi dünyasını zənginləşdirərək tənhalıqdan xilas olmağa çalışırmış.

"Çovdarlıqda uçurumdan qoruyan" romanı ötən əsrin 60-cı illərindən 80-ci illərinə qədər ABŞ kitabxanalarında qadağan edilmişdi. Söz-söhbət gəzirdi ki, əsərin qəhrəmanı Holden Kolfild davranışlarıyla gənc nəslə pis nümunə göstərir. 1980-ci ildə Selincerin romanından ilhamlanan Mark Çapman "Bitlz" qrupunun solisti Con Lennonu qətlə yetirdikdən sonra bu narahatlıq daha da artdı. Həmin qətl hadisəsi barəsində yayılan söhbətlərdə qatilin çantasından "Çovdarlıqda uçurumdan qoruyan" romanının çıxması haqqında da danışılırdı. Qısa bir zamanda qəzetlər, televiziyalar bu barədə reportajlar yaymağa, tanınmış şəxslər bu kitabın gənclərə mənfi təsiri barədə danışmağa başladılar. Romana qarşı aparılan antireklam əks effekt verərək, əsərin reklam olunmasına xidmət göstərdi. Məhz bundan sonra romanın satışı rekord həddə çatdı.

Kitabla bağlı qalmaqallar onu həmişə gündəmdə saxlayırdı. Bəziləri ABŞ-da gənclər arasında intihara meyilliliyin artmasını da bu romanla əlaqələndirirdilər. Bir sıra şərhçilərə görə, əsər sərhədsiz azadlığın gətirdiyi məsuliyyətsizliyi, qeyri-ciddiliyi, ictimai qaydaların mənasızlığını, bir sözlə, tüfeyli həyat tərzini təbliğ edir.

Selincer isə ömrünün axırına qədər tənhalığına xəyanət etmədi, 2010-cu ilin yanvar ayının 27-də öz malikanəsində tək-tənha fani dünyadan köçdü.

***Murad Köhnəqala***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Xalqını tərənnüm edən sənətkar...



## Mikayıl Abdullayevin anım günüdür

Xalq rəssamı Mikayıl Abdullayevin yaradıcılığının mayası doğma vətəni Azərbaycan və onun gözəllikləri idi. Rəssamın dilindən söylənən “Azərbaycan, doğma vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram” fikirləri də bunu təsdiqləyir. Əli fırça tutandan son nəfəsinə qədər yalnız istedadına, zəhmətinə güvənmişdi. Qazandığı fəxri adlar, titullar arasında ona ən çox yaraşanı isə kövrək qəlbli, zərif duyğulu bir insan olması idi...

M.Abdullayev hərtərəfli biliyə malik sənətkar olub. Demək olar ki, təsviri sənətin bütün sahələrində çalışıb: dəzgah rəngkarlığı, qrafika, teatr dekorasiyası, monumental rəngkarlıq və s. Bu sahələrin hər birində özünəməxsus yaradıcılıq dəstxəttinə uyğun, bitib-tükənməyən zərif sənətkar duyğularının ifadəsi olan əsl sənət inciləri yaradıb.

Rəssamlarımız arasında M.Abdullayev kimi ikinci bir fırça ustası tapılmaz ki, öz yaradıcılığı ilə klassik və müasir Azərbaycan ədəbiyyatına möhkəm tellərlə bağlı olsun. O, dahi Nizamidən tutmuş yazıb-yaradan digər şair və nasirlərimizə qədər bir çox sənətkarın portretini yaratmış, əsərlərinə illüstrasiyalar çəkmişdi.

Görkəmli sənətkarın yaradıcılığında xarici ölkə motivləri də var. 1956-1971-ci illərdə Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və s. ölkələrə səfər zamanı çəkdiyi rəsmlər silsiləsində milli və fərdi xarakteristika, plastika, kolorit zənginliyi əsas yer tutur. Əsərləri Paris, London, Praqa, Sofiya, Varşava, Qahirə, Belqrad və s. şəhərlərdə nümayiş olunub, Leypsiq, Berlin, Dehli, Madrid, Milan, Kioto şəhərlərində fərdi sərgisi keçirilib.

Xalq rəssamının yaradıcılığında metronun “Nizami” stansiyası, “Abşeron” mehmanxanası və “Gülüstan” sarayının interyerinin tərtibatı xüsusi yer tutur.

M.Abdullayevin fəaliyyəti dövlət tərəfindən daim yüksək qiymətləndirilib. Heydər Əliyevin M.Abdullayevi müstəqillik illərində “İstiqlal” ordeni ilə təltif etməsi buna bariz nümunədir. Prezident İlham Əliyev 2021-ci il sentyabrın 10-da Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.





Bu gün-avqustun 22-si xalqını tərənnüm edən, Azərbaycanın adını həmişə uca tutan dahi boyakarın ölümündən 22 il ötür. Həyatda olmasa da, onun işıqlı xatirəsi xalqımızın qəlbində yaşayacaq, rənglər dünyasının əbədi sakini kimi daim xatırlanacaq...

*Yeganə BAYRAMOVA*

# Qəbələ və Naxçıvanda mühüm görüş...

Məlumdur ki, dünyanın qabaqcıl ölkələrində iqtisadiyyat əsasən kiçik və orta sahibkarlığın dəstəklənməsi hesabına inkişaf edir. Respublikamızda sahibkarlığın inkişafının təşviq edilməsi məqsədilə mühüm işlər görülür. Xüsusilə regionlarımızda azad sahibkarlığın hərtərəfli inkişafı, sahibkarlarla mütəmadi görüşlərin təşkili və onlara üçün əlverişli şəraitin yaradılması istiqamətində uğurlu fəaliyyət davam etdirilir.

Bundan başqa, sahibkarlara həm siyasi dəstək, həm metodik tövsiyələr, eyni zamanda maliyyə resursları verilir ki, onlar iş qursunlar. Müxtəlif rayonlarda həyata keçirilən əsas infrastruktur layihələri başa çatır və yaxud yeni layihələrə start verilir. Eyni zamanda regionlarımızda yeni yollar, kommunikasiyalar salınır, elektrik, qaz, su xətləri yenilənir. Bir sözlə, biznesin inkişafı üçün bölgələrdə, həmçinin paytaxtımızda yeni imkanlar yaradılır.

Liberal iqtisadiyyatın genişləndirilməsi, kiçik və orta biznesin dayanıqlı inkişafının təmin edilməsi və nəticə etibarı ilə özəl sektorda gəlirliliyi və istehlak mallarının istehsalının artırılması Azərbaycanda prioritet istiqamətlərdən biri hesab olunur. Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən “2030: sosial iqtisadi inkişafa dair milli prioritetlər” gizli iqtisadiyyatın məhdudlaşdırılmasını, eyni zamanda, liberal iqtisadiyyatın genişləndirilməsini özündə ehtiva edən hüquqi bazadır. Dövlət başçısı tərəfindən hər bir sahədə olduğu kimi, sözügedən sektorda da aparılan məqsədyönlü siyasətin uğurlu nəticələri onu deməyə əsas verir ki, yaxın gələcəkdə də azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi istiqamətində uğurların, nailiyyətlərin qazanılmasına şahidlik edəcəyik.

## Sahibkarların təklifləri dinlənilib



**Sahibkarlar üçün əlverişli fürsətlər**

Son illər sahibkarların fəaliyyətinin təşviqi istiqamətində vergi qanunvericiliyində əhəmiyyətli dəyişikliklər edilib. Belə ki, Azərbaycanda son illərdə yeni iqtisadi model tətbiq edilir. Məsələn, sahibkarlara dövlət dəstəyi olaraq vergi güzəştlərinin təklif olunmasını qeyd edə bilərik. Bununla da sahibkarlar həmin güzəştlərdən istifadə edərək xərclərini minimallaşdırmaq və iqtisadi aktivliyi qısa zamanda bərpa etmək imkanı əldə edirlər. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycanda azad sahibkarlıq və liberal iqtisadiyyat ilbəil daha da inkişaf edir. Bu da ölkə iqtisadiyyatının dayanıqlı inkişafına ciddi təkan verir.

**Qəbələdə mühüm müzakirə...**

Bu yaxınlarda Qəbələdə “Sahibkarların bilik və bacarıqlarının artırılması” mövzusunda görüş keçirilib. Görüş rayonun Zarağan kəndi ərazisində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən təyin olunub. Belə ki, sahibkarların bilik və bacarıqlarının artırılması, onlara məsləhət xidmətlərinin göstərilməsi, müvafiq sahələrdə xidmət göstərən sahibkarlar arasında əlaqələrin qurulması, həmçinin onların üzləşdikləri çətinliklərin dinlənilməsi və təkliflərin müzakirəsi məqsədilə açıq havada müzakirələr aparılıb.

Bildirilib ki, KOBİA-nın Şəki-Zaqatala regional koordinatorluğunun, rayon icra hakimiyyətinin, Dövlət Məşğulluq Agentliyinin nümayəndələrinin və müvafiq sahibkarlıq subyektlərinin iştirak etdiyi tədbirdə sahibkarların qarşılaşdıqları çətinliklərin operativ həlli, ehtiyaclarının düzgün müəyyənləşdirilməsi və təmin olunması istiqamətində geniş fikir mübadiləsi aparılıb.

**Naxçıvanda qadın sahibkarlarla görüş**

Bundan başqa, ötən günlərdə KOBİA-nın KOB dostu departamentinin Naxçıvan regional koordinatorluğunun təşkilatçılığı ilə qadın sahibkarlarla görüş keçirilib. KOBİA-dan verilən məlumata görə, 25-ə yaxın sahibkarlıq subyektinin iştirak etdiyi görüşdə qadınlar arasında sahibkarlıq fəaliyyətinin təşviqinə, bu sahədə dövlət dəstəyi tədbirlərinə və həyata keçirilən layihələrə, özəl qurumların təşəbbüslərinə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda qadın sahibkarların maliyyə resurslarına və satış bazarlarına çıxışı, sərgilərdə iştirakına dəstək mexanizmlərinə dair məlumat verilib.

Həmçinin görüşdə qadın sahibkarlar uğur hekayələrini bölüşüb, onların təklifləri dinlənilib və sualları cavablandırılıb.

**Növbəti görüş paytaxtda olub**

KOBİA-nın növbəti dəfə sahibkarlarla görüşü isə avqustun 19-da baş tutub. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov görüş zamanı sahibkarların biznesin inkişafına dair müxtəlif məsələlər barədə müraciətlərini dinləyib, onlarla bağlı ətraflı izahat verib, suallarını cavablandırıb.

Sahibkarların müraciətləri əsasən infrastrukturun yenilənməsi, kommunal xidmətlərə qoşulma, yeni biznes təşəbbüslərinin həyata keçirilməsi üçün dəstəyin göstərilməsi, idxal əməliyyatları, cari biznes fəaliyyətləri ilə əlaqədar digər məsələlərlə bağlı olub. Sahibkarların araşdırma tələb edən müraciətləri isə baxılması üçün qeydiyyata alınıb.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

# Azərbaycan 36-cı Beynəlxalq İnformatika Olimpiadasında təmsil olunacaq




## Azercell-in dəstəyi ilə hazırlıq keçən məktəblilər ən nüfuzlu informatika müsabiqəsində qələbə üçün mübarizə aparacaqlar

1-8 sentyabr 2024-cü il tarixlərində Misirin İsgəndəriyyə şəhərində 36-cı Beynəlxalq İnformatika Olimpiadası (IOI 2024) baş tutacaq.

Azercell-in dəstəyi ilə olimpiadalara hazırlıq keçən Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Fuad Qarayev, Bakı şəhəri, Akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Ayxan Dəmirli və 11-ci sinif şagirdi Hüseyn Ağayev, həmçinin Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyi 10-cu sinif şagirdi Tahir Əliyev ölkəmizi bu nüfuzlu bilik yarışında təmsil edəcəklər.

Olimpiadada təxminən 90-a yaxın ölkədən 350-dən çox məktəblinin iştirakı gözlənilir. Müsabiqənin 2 günü ərzində şagirdlərə hər gün 3 alqoritmik məsələni həll etmək üçün 5 saat vaxt veriləcək.

Qeyd edək ki, Azərbaycan komandası “Azercell Telekom”un dəstəyi ilə payız, qış, yaz və yay kamplarına, həmçinin Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Türkiyənin İstanbul şəhərində hazırlıq proqramına cəlb edilib.

2017-ci ildən etibarən informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” MMC-nin Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgələrindən və paytaxt məktəblərindən olan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 74 medal qazanıblar.

Məktəblilərimizə dəstəyimizi davam etdirir və onlara yeni uğurlar arzulayırıq!

# Helesa adəti-Xeyirxahlıq nümunəsi...

Yardımlaşmaq, bir-birinə kömək etmək nə qədər gözəl əməldirsə, onun bir cəmiyyətdə adət halına salınması, illərlə, əsrlərlə yaşadılması və gənc nəslə ötürülməsi bir o qədər əzəmətli hadisədir. Ümumiyyətlə, faydalı, xeyirxah əməllərin bir oyun, bir adət kimi təlqin edilməsi yetişməkdə olan gənc nəslin tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında da böyük rol oynayır.

Müxtəlif cəmiyyətlərin özünə xas bu cür gözəl adət-ənənələri var. Bu yazımızda onlardan biri haqqında danışacağıq.

Qardaş Türkiyənin Sinop şəhəri haqqında kiçik bir araşdırma aparsanız, onun tarixi, məişəti ilə bağlı ilk qarşılaşacağınız ifadələrdən biri “Sellime çıxma” və ya Helesa olacaq. Sinopa xas bir ənənə olan Helesa hər il Ramazan ayının 15-ci günündən sonra həyata keçirilir. Bu maraqlı ənənənin yaranması ilə bağlı yazılı qaynaqlarda olmayan, amma dildən-dilə dolaşaraq günümüzə qədər gəlmiş ən az özü qədər maraqlı bir əfsanəsi var:

Əfsanəyə görə, qədim dövrlərdə gəmilər yelkənlərlə işləyərkən Qara dənizdə bu gəmilərin sığına biləcəyi üç liman var idi. Bunlar iyul, avqust və Sinop imiş. Yəni Qara dəniz yalnız iyul-avqust aylarında tufansız olardı, başqa vaxtlarda isə gəmilər ancaq Sinop limanına sığına bilirmiş.

Belə bir fırtınalı qış günlərindən birində yelkənli gəmi fırtınaya tutularaq Sinop limanına sığınır. Həftələrlə burada qapalı qalan gəmidəki ekipajın zamanla ehtiyatları tükənir və aclıq başlayır. Ekipaj dilənmək istəmədiyi üçün heç kimdən heç nə istəyə bilmir.

Bir gün kapitanın ağlına yemək tapmaq üçün bir fikir gəlir. O, ekipajına təcili olaraq xilasedici qayığı bəzəməyi tapşırır. Kapitan və ekipaj bu bəzəkli qayıqla və gecə olduğu üçün əllərində çoxlu fənərlərlə Sinopa enir və müxtəlif manilər söyləyərək şəhəri dolaşa-dolaşa insanlardan yemək istəyirlər. Bunu görən əhali dənizçilərə müxtəlif yeməklər verir və bununla da dənizçilər aclıqdan xilas olurlar.



Ramazanda yardımlaşmanı təlqin edən ən gözəl nümunələrdən biri olan Helesa bu hadisədən sonra hər Ramazan ayında Sinopda təkrarlanan bir ənənə halını alır.

Ənənəyə görə, Helesadan əvvəl əfsanədəki xilasedici qayığı təmsil etmək üçün bir neçə nəfəri daşıya biləcək qədər böyük bir qayıq gözəl şəkildə bəzədilir və fənərlər və ya şamlarla işıqlandırılır.

İftar edilib, oruclar açılandan sonra toplaşan gənclər bəzədikləri bu qayığı bəzən çiyinlərində, bəzən də əllərində tutaraq bütün məhəllələri gəzirlər. Qayıq hər evin qarşısında ev sahibinə görünəcək bir şəkildə yerə qoyulur. Bu evlərin qapısına gələn insanların içindən gözəl səsə malik olan bir şəxs Helesa manilərindən bir neçəsini oxuyur, digərləri isə nəqarəti deyib, bəxşiş istəyirlər. Məsələn, Helesa manilərinə misal göstərək:

***Gəmi gəldi, duydunuzmu?***
***Salam verib aldınızmı?***
***Bu gəmini tanıdınızmı?***
***Helesa yelesa,***
***Heyemola yusa hop.***

***Həsən abi, gəldik sizə,***
***Xətrin qalmasın bizə,***
***Bəxşiş çox göndər bizə...***
***Helesa yelesa,***
***Heyemola yusa hop.***

Bəxşişlər bir dəsmala bükülür və düşdüyü yerdə görünsün deyə dəsmalın ucu yandırılaraq yerə və ya qayığa atılır. Toplanan bütün bəxşişlər daha sonra ehtiyacı olanlara paylanır.

Bu qədim adət bu gün də Sinop və ətraf rayonlarda yaşadılmaqdadır. Bu, insanların bir-birinə kömək etməyinin, acların qarınlarını doyurmağın vacibliyinin ən gözəl nümunəsidir. Axı Peyğəmbərimiz də deyirdi: “Qonşusu ac ikən özü tox yatan bizdən deyil...”

*Şahanə MÜŞFİQ*

# “Bakcell”in dəstəyi ilə şəhid övladları üçün yay düşərgəsi təşkil olunub




“Bakcell”in baş sponsorluğu və “YAŞAT” Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün “Ənənə” yay düşərgəsi təşkil olunub. Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisində baş tutan tədbirdə 50-dək şəhid övladı iştirak edib.

Hərbi vətənpərvərlik və milli ənənələr mövzusuna həsr olunan düşərgə beş gün (13-18 avqust) davam edib. Tədbirdə gənclərin iştirakı ilə qədim milli oyun növləri üzrə yarışlar, müxtəlif təlimlər və interaktiv oyunlar keçirilib.

“Müasir bacarıqlar və innovasiya” adlı təlim düşərgə iştirakçıların xüsusi marağına səbəb olub. Təlimdə “Bakcell”in əməkdaşı Rüfət Quliyev gələcəyin peşələri, ən çox tələb olunan bacarıqlar və bu bacarıqların əldə edilməsində texnologiya və innovasiyanın rolundan danışıb. Bundan əlavə, “Bakcell”in innovativ xidmətləri, “high-tech” və “AI” dəstəkli məhsulları barədə məlumat verilib.

Qeyd edək ki, şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi “Bakcell” şirkətinin korporativ sosial məsuliyyət (KSM) proqramının əsas istiqamətlərindən biridir. Şirkət bu sahədə təşəbbüsləri dəstəkləməyi və daha da genişləndirməyi planlaşdırır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4848**
**Sifariş: 1890**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Mübariz Abdullayev